


# "Narkomaniyaya yox deyək" - gələcəyimizi xilas edək...

*"XXI əsrin çağırışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır". Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin narkotiklərlə bağlı məlum çıxışı ölkə ərazisində "ağ ölüm"lə bağlı mübarizəyə təkan verdi. Bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, xalqın...*

Səh.10



UNİKAL

№35 (2073) 24 sentyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev
www.unikal.org
unikal-1@mail.ru

# Etibar Pirverdiyevin biznesmen, yoxsa avtoş oğlu?..

Səh.9



# Böyük güclər Qafqazda sabitliyin pozulmasında maraqlıdır

## Həftənin replikası: məmurlar vəzifələrini tərk edir, lakin övladları öz zərərli vərdişlərini yox...

*Bir vaxtlar məmur balalarının qudurğanlığı bütün əndazələri aşmış, iş o yerə çatmışdı ki, bu ölkə mətbuatının aparıcı mövzularından birinə çevrilmişdi.*

*İş o yerə çatmışdı ki, Prezident də məsələyə münasibət bildirmiş, övladları nə qanunları, nə də milli-mənəvi dəyərləri saya salan vəzifəli şəxslərə kəskin xəbərdarlıq etmişdi. Dövlət rəhbəri keçirdiyi müşavirələrdən birində qudurğanlıq edən məmur övladlarını sərt tənqid etmiş və bildirmişdi ki, belə hallara yol verən məmur və məmur övladları dərhal cəzalandırılacaq. Son illərdə ölkədə həyata keçirilən islahatlar, yuxarı məmur eşalonunda ciddi dəyişikliklər "papaların gül balaları" barədə xəbərlərin azalmasına gətirib çıxarıb. Düzdür, yenə də ara-sıra hansısa vəzifəli...*

Səh.5

## "İran qəsdən Azərbaycanla münasibətləri gərginləşdirir"



*İranla Azərbaycan arasında münasibətlər zaman-zaman gərgin olub və müəyyən müddətdən sonra ortaq məxrəcə gəlinib. Amma istər 44 günlük müharibə dövründə, istərsə də son günlər baş verənlər münasibətlərin normal məcrada qalmasına imkan vermir. "Unikal" qəzetinə müsahibə verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu ilə söhbətimiz...*

Səh.4

## Elmar Məmmədyarov üçün təlaşlı günlər...



*Xarici İşlər Nazirliyinin (XİN) İşlər idarəsinin sabiq müdiri Fərhad Mollazadə və İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadənin cinayət işi üzrə məhkəmə iclasları keçirilir. Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyevin sədrliyi ilə keçirilən proseslərdə dindirilən şahidlər...*

Səh.8

## Hacıbala Abutalıbovla bağlı müəmmalı vəziyyət



*Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri, bir müddət icra başçısının müavini səlahiyyətlərini icra etmiş Rasim Quliyevin cinayət işi üzrə məhkəmə proseslərində sabiq mer Hacıbala Abutalıbov barədə ilginc iddialar səslənir.*

Səh.3

# Əcnəbi ilə ailə quran azərbaycanlı məşhurlar




***Bir vaxtlar şou-biznesdə məşhur simalardan olan bəzi sənətçilər əcnəbi ilə ailə quraraq ölkədən köçüblər. Kimisi sənətdən uzaqlaşıb, kimisi hərdən yenilik təqdim edərək yaddaşlarda qalmağa çalışır.***

**Əcnəbi ilə ailə quran tanınmışları təqdim edirik:**

Müğənni İradə İbrahimova Ceyhun İzer adlı türkiyəli iş adamına ərə gedib. Sənətçi ailə qurduqdan sonra Türkiyəyə köçüb. Hazırda iki övladı olan İradə gec-gec səhnəyə çıxır.

Müğənni Aygün Miyak da Türkiyə vətəndaşı Halukla ailə qurub. Aygün ərə getdiyi andan İstanbulda yaşayır. Onun bu nikahdan iki övladı var. Aygün müğənnilikdən uzaqlaşıb.

Aparıcı Xoşqədəm Hidayətqızı da əcnəbi ilə ailə quran məşhurlardandır. O, Türkiyənin tanınmış müğənnisi Doğuşla nikah masasına oturub. Cütlüyün Arın və Arda adlı əkizləri dünyaya gəlib.

Xalq artisti Fidan Hacıyeva İngiltərə vətəndaşı Filipplə ailə qurub. Onun bu nikahdan iki övladı var.

Əməkdar artist Məlahət Abbasova da Türkiyə vətəndaşı ilə ailə qurub. Aktrisanın bir qız, bir oğlan övladı var.

Müğənni Yeganə Mürsəlova Fateh adlı Türkiyə vətəndaşı ilə ailəlidir. Onun bu nikahdan Ömər adlı oğlu var.

Müğənni Dilarə Kazımova da Türkiyə vətəndaşı ilə ailə qurub. Mərt Aslan və Dilarənin toyu 2014-cü ildə baş tutub. Cütlük bir neçə il sonra boşanıb.

Aktrisa Cəmilə Tağızadə Murad Temiz adlı Türkiyə vətəndaşına ərə gedib. İstanbulda yaşayan Cəmilənin bir övladı var.

Xalq artisti Yusif Eyvazov Rusiyanın Xalq artisti Anna Netrebko ilə ailə qurub. cütlük Moskvada yaşayır.

Aparıcı Günel Musəvi uzun illərdir ABŞ-a köçüb. Aparıcı bir müddət əvvəl orada yaşayan azərbaycanlı ilə ailə qurub. Onun bu evliliyi uzun çəkməyib. Günelin bu nikahdan qızı dünyaya gəlib. O, ikinci dəfə əcnəbi bəylə ailə qurub və bir oğlu doğulub.

Fəaliyyəti dayandırılmış ANS telekanalında yayımlanan "Kamerton" proqramı ilə tanınan Gülnarə Məmmədova da Özgür adlı türk vətəndaşı ilə ailə qurub. Onun bu nikahdan bir övladı var. Bu aparıcının ikinci evliliyidir.

# "Sən bir nəslin çörək ağacısan" - Zaurdan Vüsaləyə

***Aparıcı Zaur Baxşəliyev 40 gün əvvəl qardaşını itirən həmkarı Vüsalə Əlizadə ilə bağlı paylaşım edib.***

O, aparıcıya səslənərək, onun işinə qayıtmasını istəyib: "Əziz insan, dərd azar kimidir, batmanda gələr, misqalla çıxar. Dərdin sənindir, təsəllimiz heç nəyi azaltmaz. Nə çəkdiyini sən yaxşı bilirsən. Sən həm də bir nəslin çörək ağacısan. İndi üzərinə daha böyük məsuliyyət düşür. Sən işinin başına dönməlisən. Səni minlərlə tamaşaçı gözləyir. Qayıt aramıza gəl və davam et. Onun da ruhu şad olar. Çünki o səni hər zaman səhnədə görmək istəyirdi. İnşallah, efirə davam".



Qeyd edək ki, Vüsalə Əlizadənin qardaşı Əlihüseyn Əlizadə ötən ay yol qəzasında dünyasını dəyişib. Mərhum Dövlət Sərhəd Xidmətinin zabiti olub.



# Tünzalənin kürək dekoltesi müzakirələrə səbəb olub

***Xalq artisti Tünzalə Ağayeva bu dəfə kürək dekolteli libası ilə gündəmə gəlib.***

Qara geyimlə obyektiv qarşısına keçən müğənni şəkillərini İnstaqram izləyiciləri ilə bölüşüb.

"Özünü bil, özünə dəyər ver, özündən nə istədiyini bil... Səni mükəmməl yaradana çox şükür et. Ətrafdan gözləmədən, ətrafını qınamadan, öz tənqidçin özün ol. Çünki necə düşünürsən, nə yeyirsən, necə rəftar edirsən, necə yaşayırsan, sən məhz osan... Hər şey sənsən... Hər şey səndədir" deyə, Ağayeva paylaşımına yazıb.

Sənətçinin fikirlərindən çox geyimi müzakirələrə səbəb olub.

# Nazpəri Dostəliyeva əməliyyat olunub

***Xalq artisti Nazpəri Dostəliyeva əməliyyat olunub.***



Axşam.az-ın əldə etdiyi məlumata görə, müğənni yıxılıb və qolu zədələnib.

Əməliyyat olunan Dostəliyevanın durumu yaxşıdır.

# Gülüstan Əliyeva da koronavirusa yoluxub

***Əməkdar artist Gülüstan Əliyeva da koronavirusa yoluxub.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, müğənni bu haqda "Özəl" proqramında deyib. O bildirib ki, xəstəliyi ağır keçirib: "Çox soyuq olmuşdu, koronavirusa yoluxdum. Çətin oldu, amma şükür, keçib getdi".

Azərbaycan musiqisinin hazırki durumundan bəhs edən G.Əliyeva "Şikayətlənirəm... Təskinlik də verirəm ki, keçici haldır. Düzələcək" sözlərini deyib.

## Kamran Əliyev Rusiya və Ermənistanın baş prokurorları ilə görüşdü

***Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə üçtərəfli formatın səmərəliliyi qeyd edilərək son 9 ay ərzində Qarabağda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilmişdir.

Qarabağda yerləşən Rusiya Sülhməramlı Qüvvələrinə təhkim olunmuş Baş Hərbi Prokurorluğunun nümayəndələri ilə əlaqəli şəkildə törədilmiş hüquqpozmalara dair məlumatların mübadiləsi, habelə həmin məlumatlar üzrə müvafiq tədbirlərin görülməsi sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilmişdir.

Kamran Əliyev 44 günlük Vətən müharibəsindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini qeyd etmişdir.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti diqqətə çatdırılmış və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilmişdir.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür etmişdir.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləmişlər.

## ETSN Qarabağ Dirçəliş Fondu ilə memorandum imzaladı

***23 sentyabr 2021-ci il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında işğaldan azad edilən ərazilərdə ətraf mühitə vurulan zərərlərin aradan qaldırılması və bərpa işlərinin görülməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qarabağ Dirçəliş Fondunun Mətbuat Xidmətlərindən Unikal.org-a verilən birgə məlumata əsasən, Memorandumu Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıb.

Əməkdaşlıq Memorandumunun məqsədi işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxilində və xaricində təşviq etməkdir.

Razılaşmaya əsasən bölgədəki ekosistemlərin və infrastrukturun, hidrometeoroloji müşahidə sistemlərinin bərpası, ətraf mühitin monitorinqi stansiyalarının yaradılması, yeni yaşıllıqların salınması, meşəbərpa tədbirləri, su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə su mənbələrinin qiymətləndirilməsi, balıq növlərinin yetişdirilərək su hövzələrinə buraxılması kimi layihələrin icrası həyata keçiriləcək.

Bu əməkdaşlıq, eyni zamanda, işğal dövründə Ermənistan tərəfindən törədilmiş ekoloji terror, təbiət obyektlərinə dəymiş ziyan, ərazilərin, o cümlədən su hövzələrinin Ermənistan ərazisindən transsərhəd çirklənməsinin davam etdirilməsi kimi faktların beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə xarici mətbuatda işıqlandırılması və "Yaşıl" iqtisadiyyatın dəstəklənməsi kimi layihələri də əhatə edəcək.

Tərəflər digər dövlət, özəl təşkilatları, eyni zamanda diaspora və cəmiyyətin müxtəlif nümayəndələrini də bu Memoranduma qoşularaq qeyd olunan istiqamətlər üzrə potensial əməkdaşlığa, öz fəaliyyət istiqamətlərinə uyğun olaraq işğaldan azad edilən ərazilərdə ətraf mühitə vurulan zərərlərin aradan qaldırılmasına, ekoloji tarazlığın bərpası və yenidənqurma işlərinin təşkilinə, sosial-iqtisadi rifahın yaxşılaşdırılması məsələsinə dəstək olmağa dəvət edir.

# Elmar Məmmədyarov üçün təlaşlı günlər...

## Sabiq nazirə qarşı korrupsiya iddiaları niyə yenidən gündəmə gəlib?



***Xarici İşlər Nazirliyinin (XİN) İşlər idarəsinin sabiq müdiri Fərhad Mollazadə və İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadənin cinayət işi üzrə məhkəmə iclasları keçirilir.***

Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyevin sədrliyi ilə keçirilən proseslərdə dindirilən şahidlər maraqlı faktlar açıqlayırlar. Məsələn, "Ofis aləmi" dəftərxana ləvazimatları şirkətinin rəhbəri Asif Ağayevin ifadəsindən məlum olub ki, tenderlərin birində qalib olandan sonra XİN tərəfindən 68 min manat pul köçürülüb: "Ondan 18 min manatlıq avadanlıqlar alınıb. Vergilər çıxılandan sonra yerdə qalan 42 min 841 manat pul nağdlaşdırılaraq nazirliyin əməkdaşı S.Əlizadəyə verilib".

Ümumiyyətlə isə sözügedən məhkəmə proseslərindəki şahid ifadələri Elmar Məmmədyarovun zamanında XİN-də rüşvət və korrupsiyanın nə qədər dərin kök saldığını gözlər önünə sərir. Bu isə sosial şəbəkələrdə və müxtəlif KİV-lərdə eks-nazirlə bağlı bəzi iddiaların ortaya çıxmasına səbəb olub. Bu iddialar arasında Məmmədyarovun barəsində də hüquqi ölçü götürülə biləcəyi barədə fikirlər, mövqelər də var. Haqlı olaraq əksəriyyət belə düşünür ki, Elmar müəllim uzun müddət rəhbərlik etdiyi nazirlikdə rüşvət və korrupsiyanın tüğyan eləməsindən xəbərsiz ola bilməzdi. Əslində Məmmədyarovun vəzifədə olarkən qazandığı var-dövlətin, sərvətin miqyası da belə düşünənlərin "əlini qüvvətləndirir". Məsələn, keçmiş nazirin böyük oğlu Emin Məmmədyarovun atası nazir postunu tutduğu müddətdə Nyu-Yorkda bahalı mənzil alması barədə xəbər təsdiqlənib. Bəlli olub ki, nazir oğlu Nyu-Yorkda 1 yox, 2 mənzil alıb. Mənzillərin ümumi dəyəri 4.2 milyon dollardır. Nyu-York Vegri Departamentindən bildirilib ki, mənzillər Riversayd bulvarı, "Tramp-Pleys"dəki binalarda yerləşir

Həmin 4,2 milyon dolların məhz vaxtilə XİN-dəki korrupsiya və rüşvət hesabına əldə edilmədiyini kim iddia, yaxud sübut edə bilər? .Bundan başqa, Məmmədyarovun vəzifədə olduğu illərdə XİN davamlı şəkildə korrupsiya qalmaqallarına görə tənqid olunub, nazirin özü isə yerli KİV tərəfindən səriştəsizlikdə ittiham edilib. Hesablama Palatasının istər nazirlikdə, istərsə də ayrı-ayrı ölkələrdəki diplomatik korpuslarda aparılan auditlər zamanı ortaya çıxardığı mənimsəmələr də yadımızdadır. Həmin mənimsəmələrdən Elmar müəllimə pay düşmədiyini söyləmək üçün uşaq kimi sadəlövh olmalısan.

Bəyəm bilməyən varmı ki, bizim nazirliklərdə nazirdən xəbərsiz quş da uçmur, yarpaq da tərpənmir?

Üstəlik, keçən saylarımızın birində də vurğuladığımız kimi, sabiq nazirin XİN-dəki yeyintilərdən xəbəri olmayıbsa belə, onun həbsi üçün kifayət qədər ciddi əsaslar mövcuddur. Söhbət nazir kimi siyasi məsuliyyət daşımaqdan gedir. Elmar Məmmədyarovun tutulan komissiya sədri, idarə rəislərinin arxasında kim dayanıb? Bu adamlar kimdir ki, dövlət büdcəsindən bu sahəyə ayrılan pulları mənimsəsinlər? Elmar Məmmədyarov 16 il həmin sahəyə rəhbərlik edib. Təbii ki, pul məsələləri də birbaşa onun kurasiyasında olub. İşçiləri onu 1-2 il aldada bilərdilər. Yerdə qalan illəri kimin ayağına yazaq?!

Kim bilmir ki, dövlət büdcəsindən konkret sahəyə ayrılan pulların idarə edilməsinə, təyinatı üzrə xərclənməsinə nəzarət etməli şəxs həmin sahəyə rəhbərlik edəndir. Bu halda eks- nazir Elmar Məmmədyarov necə istisna təşkil edə bilər? Onun ən azı Cinayət Məcəlləsinin 314-cü - səhlənkarlıq maddəsi ilə istintaqa cəlb olunması lazım deyilmi? Bu həm də bir çox keçmiş iri məmurlara, o cümlədən, sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevə aiddir...

Düzdür, belə fikirləşənlər var ki, XİN-in sabiq rəhbəri üçün həbs təhlükəsi hələlik müəyyən qədər sovuşub.

Lakin onun keçmiş işçilərinin məhkəmə proseslərində bir daha təsdiqini tapan, üstəlik, milyonlarla manatla ifadə olunan korrupsiya, rüşvət faktları eks-nazirin də hüquqi məsuliyyəti ilə bağlı gözləntiləri artırıb. Bununla bağlı müzakirələrin yenidən qızışması isə Məmmədyarovu qarşıda xeyli təlaşlı ayların, günlərin gözlədiyini söyləmək üçün əsas verir.

Son olaraq onu da xatırladaq ki, XİN-in sabiq işçiləri Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən aparılan cinayət işi üzrə saxlanılıblar. Keçirilən əməliyyat nəticəsində XİN-in İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Mollazadə, İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadə tərəfindən çoxsaylı qanunsuz əməllərə yol vermələrinə əsaslı şübhələr müəyyən edilərək həbs olunublar.

26 dekabr 2020-ci ildə hər iki şəxs barəsində həbs qətimkan tədbiri ləğv olunub və onlar ev dustaqlığına buraxılıblar.Lakin bu prosesin sonda tam olaraq nə ilə başa çatacağını zaman göstərəcək. Odur ki gözləyək...

***Sənan Mirzə***

# Böyük güclər Qafqazda sabitliyin pozulmasında maraqlıdır

## İndi də ABŞ Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanmasına mane olmağa çalışır

***44 günlük müharibənin yekunu olaraq imzalanan üçtərəfli bəyanat bəzi Qərb dairələrini narahat etməkdədir. Bir müddət öncəyə qədər Ermənistanı açıq-aşkar dəstəkləyən və heç bir beynəlxalq hüquq normalarına əsaslanmayan bəzi Avropa ölkələri deyəsən, estafeti Amerikaya ötürüb.***

Belə ki, bir neçə gün öncə Amerikanın Ermənistandakı səfiri artıq tarixin arxivinə göndərilən “Dağlıq Qarabağ”ın statusundan danışaraq yeni polemika mövzusu açıb. Təbii ki, rəsmi Bakı ABŞ-ın Ermənistandakı səfirinin Qarabağa dair açıqlamasını ”qəbuledilməz” adlandırıb. Bildirilib ki, ABŞ-ın Ermənistandakı səfiri ”Dağlıq Qarabağ”ın statusu məsələsinin həll olunduğunu hesab etmirik. Bu məsələ Minsk Qrupunun gündəliyindədir” söyləyib. ABŞ səfirinin belə bir açıqlama ilə çıxış etməsi qəbuledilməzdir: ”Münaqişə keçmişdə qalıb, Azərbaycan ərazi bütövlüyünü təmin edib və Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli Sərəncamı ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradılıb. Bu ərazilər Azərbaycanın tərkib hissəsidir və hər hansı statusdan söhbət gedə bilməz. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat ilə bölgədə yeni reallıqlar, o cümlədən beynəlxalq hüquq prinsipləri əsasında münasibətlərin normallaşdırılması imkanı yarandığı bir vaxtda ABŞ rəsmisinin belə bir açıqlama ilə çıxış etməsi vəziyyətin gərginləşdirilməsinə xidmət edir və qarşı tərəfdə əsassız gözləntilər yaradır. Hazırda ATƏT-in Minsk Qrupunun gələcək fəaliyyətinin müzakirə olunduğu bir vaxtda həmsədr ölkə nümayəndəsinin belə bir açıqlama ilə çıxış etməsi, məhz Minsk Qrupunun gələcək fəaliyyətinə xələl gətirir”.

Məsələylə bağlı fikirlərini “Unikal”la bölüşən politoloq Məhəmməd Əsədullazadə deyib ki, ABŞ-ın Ermənistan siyasətində baxışı bu ölkə ilə Azərbaycan arasında sülh imkanlarına mənfi təsir edir: “ABŞ prezidenti C. Bayden və Dövlət katibi Blinkenin Ermənistanın müstəqilliyi günü münasibətilə ünvanladığı məktubda konkret olaraq Ermənistanla Azərbaycan arasında böhranın davam etməsinə, revanşist qüvvələrin maraqlarına xidmət edən bir açıqlama kimi xarakterizə etmək olar. İlk növbədə ABŞ belə bir ritorikaya getməməli idi. Görünür, Vaşinqton Rusiya sülhməramlı qüvvələrinin Qarabağda mövqelənməsindən rəsmi Bakıya qəzəblidir. ABŞ prezidentinin əsirlərlə, həmçinin ”status” məsələsi və Minsk qrupunun fəaliyyəti ilə bağlı mesajı Cənubi Qafqazda uzun müddətli sülh imkanlarını hədəf alır. Bununla da rəsmi Yerevanın ritorikasının dəyişməsinə gətirib çıxarır. Məhz ötən gün Baş nazir Nikol Paşinyanın iki erməni dövlətindən bəhs etməsi və Qarabağ məsələsini qabartması bunun nəticəsidir”.

Politoloq qeyd edib ki, ABŞ-ın Ermənistanda səfiri demək olar ki, hər gün ”Dağlıq Qarabağ problemini” gündəmə gətirir: “Həmçinin ”status” məsələsinin vacibliyini qeyd edir. Görünür, Yerevanda səfirə təlimat birbaşa ABŞ-dan verilir. Yoxsa, səfir belə bir açıqlama ilə çıxış edə bilməzdi. ABŞ bu mövqeyi rəsmi Yerevanın mövqelərinə təsir edəcək və Baş nazir Nikol Paşinyan Azərbaycanla hər hansı bir danışıqlarda Vaşinqtonun gündəmə gətirdiyi təkliflərlə çıxış etməsi mümkündür. Təbii ki, bu halda Azərbaycan danışıqlar aparmayacaq və proses Ermənistanın ziyanına olacaq. ABŞ, Fransanın bütün cəhdlərinə baxmayaraq Azərbaycan Minsk qrupu formatına qayıtmayacaq. Təbii ki, ABŞ-ın bu siyasəti Ermənistanda mövqelərini möhkəmləndirməyə və regionda təsirinin gücləmməsinə hesablanır. Vaşinqton və Bakı arasında soyuq rüzgar əsir. Rəsmi Bakı Vaşinqtonla təmasları artırmalı, Ağ Ev və Dövlət Departamentinin siyasətində Azərbaycanla bağlı müsbət siyasətin formalaşmasına çalışmalıdır. Vaşinqtonla söz və diplomatik dartışma məqbul deyil. Rəsmi Bakı Vaşinqtonla təmasları artırmalıdır”.



Siyasi və Hüquqi Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Xəyal Beşirov isə hesab edir ki, təbii olaraq, 30 ilə yaxın bir müddət ərzində mövcud olan və davam edən o münaqişənin davam etməyində marağı olan qüvvələr var idi. Onun fikrincə, elə məhz həmin qüvvələrdir ki, bu gün münaqişənin hələ də davam etdiyini və həllini tapmadığı iddiasını ortaya qoyurlar: “Biz bilirik ki, “Dağlıq Qarabağ” münaqişəsi süni şəkildə yaradılmışdı və əsası da Ermənistanın Azərbaycan ərazilərinə təcavüz etməsi, bir milyon vətəndaşın öz dədə-baba yurdundan didərgin salınması ilə başlanmış bir münaqişə idi. Bu münaqişənin tərəflərindən biri olan, eyni zamanda, genişmiqyaslı zərərə uğrayan, əraziləri işğal altında olan Azərbaycan dövləti artıq 44 günlük müharibədən sonra öz ərazi bütövlüyünü təmin etdiyini bəyan edib. Bununla bağlı Ermənistanın kapitulyasiyası, Azərbaycanın isə qətiyyətli qələbəsini özündə təstiq edən 10 noyabr tarixli bəyanat imzalanıb. Bu bəyanatla artıq bütün beynəlxalq aləmdə təşkilatlar və ayrı-ayrı dövlətlər keçmiş Qarabağ münaqişəsinə fikir bildirərkən 10 noyabr tarixli bəyanata istinad edirlər. Bu, Azərbaycan dövlətinin, xalqının iradəsi əsasında imzalanmış bəyanatlardır. Həmin o bəyanatlarla bir daha təstiq olunur ki, keçmiş Qarabağ münaqişəsi həll olunub, tarixə qovuşub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Təbii ki, onu da nəzərə alırıq ki, münaqişədən sonra hələ də bəzi problemlər mövcuddur. Bu problemlər də Ermənistanın qeyri-konstruktiv yanaşması, eyni zamanda, həmin 10 noyabr və 11 yanvar tarixli bəyanatlarda üzərinə düşən öhtəliklərdən müxtəlif şəkildə yayınması nəticəsində mövcuddur. Düşünürəm ki, Azərbaycan dövləti haqlı olaraq həmin problemlərin siyasi və diplomatik müstəvidə həllinə nail olmağa çalışır. Biz də inanırıq ki, bu problemlər siyasi və diplomatik müstəvidə həll oluna biləcək problemlərdir. Hər hansı yeni bir müharibə və ya münaqişənin olduğunu iddia etmək yanlışdır. Bunu iddia etmək, həmin münaqişənin davam etdirilməsinə çalışmaq uğursuz cəhdlərdir”.

”Fikrimcə, ABŞ dövlətinin vəzifəli şəxslərinin, xüsusilə diplomatik missiya daşıyan səfirinin bu fikirləri səsləndirməsi, əslində, elə o dövlətin özünün xarici siyasətinə, diplomatiyasına qarşı hörmətsizlikdir. Çünki ABŞ-ın Ermənistanda olan səfirinin özünün səfiri olduğu ölkənin münasibətlərindən kənar digər dövlətin xarici siyasətlərinə aid məsələlərə münasibət bildirməsi diplomatik davranış qaydalarına sığmayan davranışdır. Az öncə də qeyd etdiyim kimi, bu, ABŞ-ın xarici siyasətinə hörmətsizlikdir. Çünki həmin adam Ermənistanda səfirdirsə, o yalnız ABŞ və Ermənistan arasında olan xarici münasibətlərə reaksiya verə, mövqe sərgiləyə bilər. Ancaq əvvəllər həmin dövlətlə münaqişədə olan Azərbaycana qarşı əsassız fikir söyləməsi beynəlxalq hüquqa zidd. Düşünürəm ki, ABŞ-ın dövlət departamenti həmin səfirlə bağlı müvafiq ölçü götürməlidir. Onun bu qanunsuz və hüquqa zidd hərəkətlərinə qiymət verməlidir. O ki, qaldı münaqişənin həlli ilə bağlı məsələyə, bu gün reallıq göz qabağındadır. Azərbaycan sərhədlərin delimitasiya və demarkasiya prosesini həyata keçirmək mərhələsindədir. Düşünürəm ki, bu da çox qısa bir müddət ərzində reallaşacaq. Ermənistan buna qarşı nə qədər müxtəlif oyunlar qursa, yayınmağa çalışsa da, bu, beynəlxalq hüququn, birliyin və ictimaiyyətin tələbidir. Çünki biz bilirik ki, zaman-zaman ermənispərəst siyasət yürüdən Fransa, Rusiya dövlətlərinin özü belə Ermənistandan həmin o delimitasiya və demarkasiya prosesinin həyata keçirilməsini tələb edirlər. Çünki bu, beynəlxalq aləmdə mövcud olan real tələbdir. Hər bir dövlət digər dövlətin sərhədini tanımalıdır. Bu gün Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi Ermənistan dövlətinin özünün də marağındadır. Çünki bu prosesə maneəçilik törətməklə Ermənistan özünün də sərhədlərini şübhə altında saxlayır. Yaxşı olar ki, Ermənistan bu prosesə könüllü şəkildə razı olsun və həyata keçirilməsinə imkan və şərait yaratsın ki, gələcəkdə Azərbaycanla Ermənistan arasında böyük sülh sazişinin imzalanmasına gətirib çıxarsın. Əks təqdirdə Azərbayacanla Ermənistan arasında sülh sazişinin imzalanması mümkünsüz olacaq. Çünki əgər bir dövlət digər dövlətin ərazi bütövlüyünü tanımırsa, həmin o dövlətlər arasında sülh sazişinin imzalanması praktiki olaraq mümkün deyil”.

***Z.Məmmədli***

# Prezidentdən Bakıda yolların təmiri ilə bağlı sərəncam



***Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur və Hövsan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin altı milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

# İqtisadiyyat Nazirliyinin bu səlahiyyəti ləğv edildi



***Prezident İlham Əliyev "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 29 yanvar 2019-cu il tarixli fərmanında dəyişiklik edib.***

Unikal.org xəbər verir ki, dövlət başçısının bununla bağlı imzaladığı yeni fərmana əsasən, Abşeron yarımadasındakı göllərin ekoloji vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi, o cümlədən Böyükşor gölünün reabilitasiyası ilə bağlı icraçı qurumların siyahısından İqtisadiyyat Nazirliyi çıxarılıb.

Siyahıda Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərsu" ASC qalıb.

Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

# Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd olunacaq

***Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd ediləcək.***

Unikal.org xəbər verir ki, bununla əlaqədar olaraq bu il sentyabrın 27-də bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Təşkilat Komitəsindən verilən məlumata görə, Anım Günündə şəhidlərimiz Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad olunacaq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunacaq.

Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

Axşam saatlarında xüsusi işıqlandırma ilə bir sıra binalarda, o cümlədən Heydər Əliyev Mərkəzinin binasının və "Alov qüllələri"nin üzərində Azərbaycan bayrağı əks olunacaq. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən anım tədbirləri keçiriləcək.

Anım Günü ilə əlaqədar mərkəzi və yerli icra hakimiyyəti strukturları ölkə miqyasında bir sıra tədbirlər təşkil edəcək, eləcə də ölkəmizin xaricində anım mərasimləri keçiriləcək.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Universitetlərdə dərslər bu halda distant ola bilər - RƏSMİ

***Ali və orta ixtisas təhsil müəssisələrində müəyyən məhdudiyyətlər nəzərdə tutulur və bu məhdudiyyətlərdən biri də ondan ibarətdir ki, auditoriyanın 70 faizindən istifadəyə icazə verilir.***

"Unikal" məlumatına görə, bunu Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli deyib.



O bildirib ki, əgər tələbə sayı 70 faiz limiti aşırsa, yəni tələbə sayı auditoriyadakı yerlərin 70 faizindən çoxdursa, o halda tədrisin alternativ qaydada təşkili ali təhsil müəssisələrinin öz səlahiyyətlərinə buraxılır: "Bu alternativ tədris müxtəlif qaydalarda təşkil edilə bilər. Yəni qruplar növbəli şəkildə tədrisə cəlb oluna bilər və ya zərurət yarandıqda distant formada tədris təşkil oluna bilər".

Alterativ dərslərin təşkil olunacağı halda, müəllimlərin dərs yükünün artacağı məsələsinə gəlincə isə N.Məmmədli bildirib ki, bu məsələ təhsil müəssisələrinin özləri tərəfindən tənzimlənəcək: "Əgər distant təhsildən söhbət gedirsə, burada müəllimlərin dərs saatında ciddi dəyişiklik olmayacaq, çünki həmin qrupun eyni vaxtda cəmlənməsi nəzərdə tutulur. Əgər növbəli şəkildə tədrisin təşkilindən söhbət gedirsə, bu halda, müəllimlərin dərs yükü arta bilər və bu da təhsil müəssisələrinin özləri tərəfindən tənzimlənəcək".

# Medianın İnkişafı Agentliyində görüş keçirildi

***Sentyabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsi çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə Tvinninq layihəsinin "İctimai maarifləndirmə kampaniyasının aparılması" adlı komponenti çərçivəsində Bakıya səfər edən avstriyalı ekspertlər Thomas Hainlen və Manuela Hargassner-Delpos, rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis, eləcə də Dövlət Komitəsinin İnformasiya şöbəsinin müdiri Elgün Səfərov iştirak edib.



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qurumun fəaliyyəti barədə məlumat verib. Mediada məişət zorakılığı məsələlərinin işıqlandırılması ilə bağlı müxtəlif məqamları müzakirə edib və bu sahədə jurnalistlərin məlumatlılığının artırılmasının əhəmiyyətini vurğulayıb.

Rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis isə media nümayəndələri üçün nəzərdə tutulan təlimlərin təşkilində MEDİA Agentliyinin rolunu xüsusi qeyd edib.

Görüş zamanı bildirilib ki, bu ekspert missiyası çərçivəsində məişət zorakılığı sahəsində ictimai maarifləndirmə kampaniyasının aparılması üzrə proqramın işlənib hazırlanması nəzərdə tutulub. Proqram Tvinninq layihəsinin ekspertlərinin dəstəyi və Dövlət Komitəsinin müvafiq əməkdaşları və media nümayəndələrinin iştirakı ilə işlənib hazırlanacaq.

Qeyd edək ki, tvinninq layihəsinin məqsədi məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsidir.

# "Xarici şirkətlərin 68%-i Azərbaycanın iqtisadi sabitliyinə inanır" - Nazir

***"Azərbaycanda Xarici Biznes: Biznes Mühiti sorğusu 2021" hesabatının sorğusunda iştirak etmiş xarici şirkətlərin 68%-i Azərbaycan iqtisadiyyatının vəziyyətinin sabit olduğuna inanır, 60%-i ölkəmizdə əlverişli biznes mühitinin formalaşdığını qeyd edir".***

Unikal.org xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

"Şirkətlərin 57%-i fəaliyyətini genişləndirmək və yaxud yeni investisiya qoymaq niyyətində olduqlarını, 43%-i məşğul olduqları sahələrdən asılı olaraq işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak edə biləcəklərini, 22%-i bu layihələrdə iştirakının mümkünlüyünü, 17%-i isə yüksək maraq göstərdiklərini bildiriblər", - deyə o, qeyd edib.

# Koronavirusa yoluxanların sayı azaldı

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 178 yeni yoluxma faktı qeydə alınıb, 2 322 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 477 587 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 444 053 nəfər müalicə olunaraq sağalıb, 6 394 nəfər vəfat edib. 27 140 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 331, bu günə qədər isə ümumilikdə 4 790 724 test icra olunub.

# Hacıbala Abutalıbovla bağlı müəmmalı vəziyyət

## Bakının sabiq meri özü haqqında ağılasığmaz ittihamlar barədə niyə susur?

***Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri, bir müddət icra başçısının müavini səlahiyyətlərini icra etmiş Rasim Quliyevin cinayət işi üzrə məhkəmə proseslərində sabiq mer Hacıbala Abutalıbov barədə ilginc iddialar səslənir.***

R.Quliyev ötən iclaslarda Hacıbala müəllimin BŞİH vəzifəsindən getdikdən sonra da qurum üzərində təsir imkanlarını saxladığına dair çarpıcı ifadə verib, bir çox qanunsuz qərarlara imza atılmasını, dolayı yolla da olsa, etiraf edib. Son məhkəmə prosesində isə paytaxtın İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis müavini və Baş memarı olmuş Akif Abdullayev normal məntiqlə izah edə bilməyəcəyimiz, kifayət qədər qalmaqallı fikirlər dilə gətirib. Deyib ki, hansısa binanın tikintisinə icazə verilərkən daxil olan sənədə icazə veriləndə sənədləri araşdırmağa ixtiyarı olmayıb: "Memarlıq və Şəhərsalma Baş İdarəsinin səlahiyyətləri tikinti üzrə sənədləri araşdırmaqla bağlı idi. Hacıbala Abutalıbov sənədləri araşdırıb qərara gələndən sonra rəylər bizə daxil olurdu, biz də razılıq verirdik".

O əlavə edib ki, Bakı şəhər İcra Hakimiyyətinə daxil olan müraciətlərə mənfi rəy verilməyib: "Yerli icra hakimiyyəti rəy bildirirdi, Bakı Şəhər İcra Hakimiyyəti sərəncam verirdi".

Hakimin "Kimsə müraciət etsə ki, Qız Qalasını sökün, sökəcəkdiniz" sualına A.Abdullayevin cavabına isə adam bilmir gülsün, yoxsa ağlasın: "Lazım olsa, rəy alıb onu da sökmək olar"...

Bu deyilənlər Abutalıbovun BŞİH-ə rəhbərlik etdiyi dövrdə meriyada hansı iş mühitinin, əhval-ruhiyyənin hökm sürdüyünü aydın şəkildə gözlər önünə sərir. Lakin maraqlıdır ki, Hacıbala müəllim keçmiş Aparat rəhbərinin məhkəmə proseslərində verilən bütün bu çarpıcı, skandal xarakterli ifadələr, həmin ifadələrdə bu və ya digər formada onun özünü də töhmət altında qoyan açıqlamalar barədə inadla susur. Halbuki bir müddət əvvələdək eks-mer özü barədə mətbuatdakı ən xırda tənqidə, ittihama da cavab verməyə çalışır, ictimai rəydə özü barədə "süddən çıxmış ağ qaşıq" təəssüratı yaratmağa çalışırdı.

Elə isə indi BŞİH-in sabiq başçısının kifayət qədər hay-küylü iddialar, ittihamlar barədə susqunluq nümayiş etdirməsi maraq doğurur.

Məsələn, övladlarının biznesi barədə KİV-in yazdıqlarına "Mənim övladlarımdır deyə özlərinə iş qura bilməzlər?" deyə üsyan edən, sərvəti barədə mətbuatdakı məlumatları tələm-tələsik inkar etməyə çalışan sabiq mer özünün sabiq kadrının, eləcə də digər işçilərinin məhkəmədə söylədikləri qarşısında niyə səssizlik nümayiş etdirir? Bəlkə bununla adının R.Quliyevlə bağlı məhkəmə prosesindən mümkün qədər uzaq qalmasına çalışır? Elə isə başqa bir sual meydana çıxır: niyə? Olmaya bu hüquqi prosesin sonda onun özünədək uzana biləcəyindən əndişəlidir?!

Hər halda bu gün Abutalıbovu ya birbaşa, ya da dolayı şəkildə gündəmə gətirən media deyil. Bu gün Hacıbala müəllim məhkəmə səviyyəsində dilə gətirilən və bir daha vurğulayaq ki, kifayət qədər səs-küylü, qalmaqallı ifadələrlə gündəmə gəlir. Onun həmin deyilənlərə gedib hakim qarşısında olmasa belə, KİV-də aydınlıq gətirməsi, münasibət bildirməsi doğru olmazmı?

Bir daha təkrarlamaqda fayda var: övladlarının biznesi barədə KİV-in yazdıqlarına "Mənim övladlarımdır deyə özlərinə iş qura bilməzlər?" deyə üsyan edən, sərvəti barədə mətbuatdakı məlumatları tələm-tələsik inkar etməyə çalışan bir eks merin, həm də paytaxt meri və Baş nazirin müavini kimi kifayət qədər önəmli postlar tutmuş vəzifəli bir şəxsin cəmiyyətdə geniş rezonans doğuran, müzakirələrə səbəb olan ittihamlara səssiz qalmasını nə anlamaq mümkündür, nə də anlamağa çalışmaq...



Hacıbala müəllim mətbuata müsahibə və açıqlamalarında "səmimiyyət" sözünü tez-tez işlədir, bununla da cəmiyyətdə özünün səmimi insan obrazını yaratmağa çalışır. Buna bir sözümüz yoxdur. Ola bilsin, eksmer səmimilikdə həqiqətən də bütün vəzifəli şəxslərə örnək ola bilər.

Lakin doğrudan da belədirsə, Abutalıbov həbsdəki sabiq kadrının məhkəməsindəki çarpıcı ifadələrlə bağlı da səmimi şəkildə mövqe bildirməsini gözləmək hər birimizin təbii haqqıdır.

Əks təqdirdə susmağın razılıq əlaməti olduğu barədə məşhur fikrin doğruluğuna bir daha inanmalı olacağıq...

*Toğrul Əliyev*

# Əli Əsədov vergitutma qaydası ilə bağlı qərar imzaladı



***"Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası" təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Sənəddə qeyd edilib ki, bu qayda Vergi Məcəlləsinin 111.3-cü maddəsinə uyğun olaraq hazırlanıb və banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması qaydasını müəyyən edir.

Banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun qaydada aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyatlarını maliyyə bazarları tənzimləyicisinin müəyyən etdiyi qaydaya uyğun yaradır.

Xüsusi ehtiyat fondlarına aid edilən məbləğlər vergitutma məqsədləri üçün bu Qaydaya uyğun olaraq gəlirdən çıxılır. Bank olmayan kredit təşkilatları tərəfindən qarşılıqlı surətdə asılı olan şəxslərə verilmiş kreditlər üzrə maliyyə bazarları tənzimləyicisi tərəfindən müəyyən edilmiş qaydaya uyğun yaradılan xüsusi ehtiyatların vergitutma məqsədləri üçün gəlirdən çıxılması 50 faiz həcmində məhdudlaşdırılır. Bank olmayan kredit təşkilatları tərəfindən digər hallarda verilən kreditlər üzrə yaradılan xüsusi ehtiyatlar vergitutma məqsədləri üçün tam həcmdə gəlirdən çıxılır.

Kredit ittifaqının üzvləri qarşılıqlı surətdə asılı olan şəxslər olduqda və onların kredit ittifaqının nizamnamə kapitalındakı paylarının həcmi 50 faizdən çox olduqda, həmin üzvlərə kredit ittifaqı tərəfindən verilmiş kreditlər üzrə maliyyə bazarları tənzimləyicisi tərəfindən müəyyən edilmiş qaydada yaradılan xüsusi ehtiyatların vergitutma məqsədləri üçün gəlirdən çıxılması 50 faiz həcmində məhdudlaşdırılır. Kredit ittifaqları tərəfindən digər hallarda verilən kreditlər üzrə yaradılan xüsusi ehtiyatlar vergitutma məqsədləri üçün tam həcmdə gəlirdən çıxılır.

Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycanın qüvvədə olan normativ və normativ xarakterli hüquqi aktları ilə müəyyən edilən mənaları ifadə edir.

# Ceyhun Bayramov ATƏT sədri ilə görüşdü



***BMT Baş Assambleyasının 76-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveç xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşüb.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşdə ölkələr arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyini və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov bölgədə olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarına zidd davranış və digər məsələlər barədə həmkarına məlumat verib. Eyni zamanda, münaqişədən sonrakı bərpa və yenidənqurma mərhələsi ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər, Azərbaycanın ATƏT ilə əməkdaşlığı məsələləri, habelə ATƏT-in Nazirlər Şurasının toplantısına hazırlıq məsələlərini müzakirə ediblər.

Görüş zamanı tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# İran səfiri: Şimal-Cənub dəhlizi Azərbaycana böyük gəlir gətirəcək

***Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycana əhəmiyyətli gəlir gətirəcək.***

"Unikal" xəbər verir ki, bunu İranın Rusiyadakı səfiri Kazem Cəlali 16-cı Sankt-Peterburq Beynəlxalq Nəqliyyat Konfransında bildirib.

Onun sözlərinə görə, Şimal-Cənub dəhlizi yeni ciddi mərhələyə qədəm qoyub və bu dəmir yolunun keçəcəyi İran və Rusiyaya, eləcə də Azərbaycana xeyli gəlir gətirə bilər.

İran səfiri həmçinin qeyd edib ki, İran region ölkələrini bir-birinə yaxınlaşdıracaq dəmir yolunun inşasında mühüm rol oynayıb.



## Ceyhun Bayramov Avropa Şurasının baş katibi ilə görüşüb

***BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində 22 sentyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.***

Xarici İşlər Nazirliyindən “Unikal”a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Avropa Şurası arasında qarşılıqlı əməkdaşlığın hazırkı durumu və inkişaf perspektivləri, Azərbaycan ilə Avropa Şurası arasında 2022-ci il üzrə Fəaliyyət Planı, eləcə də regionda baş verən proseslərlə bağlı fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov AŞ baş katibinə üçtərəfli bəyanatların icrası ilə bağlı məlumat verərək, bu xüsusda Ermənistanın əsassız iddialarının bölgədə sülh quruculuğu ilə bağlı kövrək vəziyyətin gərginləşdirilməsinə xidmət etdiyini vurğulayıb.

Mariya Peyçinoviç AŞ-nin bölgədə sülh, inkişaf və rifahın təmin olunması mövqeyindən çıxış etdiyini xatırladaraq, bunun üçün müvafiq dəstəyi göstərməyə hazır olduqlarını ifadə edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində müzakirələr aparılıb.

## Bayden "Böyük iyirmilik" ölkələrinin sammitində iştirak edəcək

***ABŞ prezidenti Cozef Bayden oktyabrın sonlarında ”Böyük iyirmilik” (G20) ölkələrinin sammitinə yola düşəcək.***



“Unikal” xəbər verir ki, bu barədə “Axios” mənbəyə istinadən məlumat yayıb.

Nəşrin məlumatına görə, Bayden İtaliyanın paytaxtı Romada keçiriləcək sammitdə iştirak edəcək və bundan sonra BMT-nin iqlim dəyişikliyi üzrə sammitində iştirak üçün Şotlandiyanın Qlazqo şəhərinə yola düşəcək.

Ağ Evdən bildirilib ki, Bayden bu prosesdə anlayışa nail olmaq və dinamikanı saxlamaq üçün oktyabrın sonlarında Fransa prezidenti Emmanuel Makronla görüşəcək.

G20 sammiti oktyabrın 30-31-də Romada keçiriləcək. Bayden bundan sonra noyabrda keçiriləcək iqlim dəyişikliyi üzrə sammitə qatılacaq.

# “İran qəsdən Azərbaycanla münasibətləri gərginləşdirir”

### Elxan Şahinoğlu: “Nə olur, olsun İran Azərbaycanla münasibətdə ehtiyatlı olmalıdır, çünki orada yaşayan azərbaycanlılar bizə qarşı təzyiqi qəbul etməyəcəklər”

***İranla Azərbaycan arasında münasibətlər zaman-zaman gərgin olub və müəyyən müddətdən sonra ortaq məxrəcə gəlinib. Amma istər 44 günlük müharibə dövründə, istərsə də son günlər baş verənlər münasibətlərin normal məcrada qalmasına imkan vermir. “Unikal” qəzetinə müsahibə verən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Elxan bəy, son dövrlər İran-Azərbaycan münasibətlərində yenidən gərginlik artıb. Baş verənləri necə dəyərləndirirsiniz?***

-Azərbaycan Xarici İşlər Nazirliyi İranın ölkəmizdəki səfirinə nota verdi, nəticəsi olmadı, yüklər qanunsuz olaraq yenə Qarabağ separatçılarına daşındı. Bundan sonra Qafan-Gorus yolunu qapatdıq ki, İran yüklərinin Qarabağa girişinin qarşısını alaq. İranın Ermənistandakı yük maşınları Azərbaycanın gömrük rüsumları qarşısında ağır vəziyyətə düşdülər, bir neçəsi həbs olundu.

Azərbaycan nə etdisə doğru etdi, sadəcə, İran Azərbaycandan bu qədər cəsarətli addımlar gözləmirdi. Bizi zəif bilib, bildiklərini etməyə çalışırdılar. Alınmadı. Tehran hazırda bizə birbaşa deyə bilmir ki, yüklərimizi buraxın, gömrük rüsumu almayın. Ona görə bizi İranın ali dini liderinin Ərdəbildəki təmsilçisi Seyid Amuli səviyyəsində qorxutmağa çalışırlar. Ona da Azərbaycanla bağlı saxta informasiya əsasında mətn verib oxutdurublar.

***-Sizcə, bu kimi bəyanatlara Azərbaycandan hansı formada reaksiya verilməli idi?***

-Amuliyə cavabı Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri və ya rayonlarımızdan birinin məscidinin axundu daha tez versəydi, yaxşı olardı. Din xadimlərimizin, o cümlədən Allahşükür Paşazadənin, Hacı Şahinin işğaldan azad olunmuş Şuşada namaz qılmaları, şəhidlərimizin ruhlarına dualar oxumaları nə qədər vacib idisə, Azərbaycanı hədələyən axunda layiqli cavab vermələri də bir o qədər əhəmiyyətlidir. Cəsarətli axunda ehtiyacımız var ki, Amuliyə faktlarla cavab versin. O da ki, hələ yoxdur, sanki məzhəb maraqları millət və təhlükəsizlik maraqlarından üstün gəlir. Tehran Amulinin diliylə bizi hədəf götürərkən bəlkə də elə bu nəticəni əldə etmək istəyirdi.

***-Azərbaycanda İrana qarşı sərt mövqe ifadə edənlər var. O fikirlər də səslənir ki, münasibətlərin daha da gərginləşməsi üçün hansısa qüvvələr prosesi körükləyir. Sizcə, buna kimlər maraqlıdır?***

-Azərbaycanın əhalisinin sayı 10 milyon nəfərdir. Hamı eyni cür düşünə bilməz. Onlar arasında məntiqi düşünənlər də var, maraqlı olan adamlar da var. Bu mənada hamının əvəzindən münasibət bildirmək çətindir. Amma mən onu bilirəm ki, İran qəsdən Azərbaycanla münasibətləri gərginləşdirir. Halbuki buna nə ehtiyac var, nə də əsas. İranın son dövrlərdəki davranışları münasibətlərdə soyuqluq yaradır. Hesab edirəm ki, İran bu yoldan geri addım atmalıdır. Mən düşünmürəm ki, Azərbaycandan kimsə İran-Azərbaycan münasibətlərinin qəsdən gərginləşdirilməsinə çalışsın. Bu, bizim maraqlara cavab vermir. Amma İran bizə qarşı addım atanda da, buna cavab verməmək mümkün deyil.

***-İranın Azərbaycanla münasibətlərinin soyumasını istəməsində məqsəd nədir?***

-Bunun sadə cavabı var ki, Azərbaycan dövlətinin möhkəmlənməsi, güclənməsi, bölgənin aparıcı dövlətinə çevrilməsi İrandakı müəyyən siyasi və hərbi mərkəzlərin maraqlarına cavab vermir. Ona görə də bizdən ehtiyat edirlər. Azərbaycan dəfələrlə deyib ki, biz İranın daxili işlərinə qarışmırıq. Bununla belə görürük ki, gözümüzün önündə Qarabağa qanunsuz yüklər daşınır. Sərhəddə hərbi təlimlər keçirirlər. Bu da anlaşılan deyil. 30 ilə yaxın işğalçıya təzyiq etmədilər, biz torpaqlarımızı azad edən kimi əzələ nümayiş etdirirlər. Onlar həm də Türkiyə-Azərbaycan hərbi ittifaqından narahatdırlar. Amma bu da Azərbaycanın öz daxili işidir. Bu kimi nümunələr çoxdur. İran Azərbaycana yönəlik siyasətini dəyişməsə, hər zaman bu cür gərginliklər olacaq.

***-Məsələ ondadır ki, İranda yaşayan soydaşlarımız da mövcud durumdan ciddi narahatdırlar və etirazlarını bildirirlər...***

-Bunun özü də onu göstərir ki, nə olur, olsun İran Azərbaycanla münasibətdə ehtiyatlı olmalıdır, çünki orada yaşayan azərbaycanlılar bizə qarşı təzyiqi qəbul etməyəcəklər. Onlar ayağa qalxsalar, İranın böyük problemləri başlayacaq.

***-Elxan bəy, başqa bir mövzu barədə fikirləriniz önəmlidir. Türk Şurasında sədrlik Türkiyəyə keçir. Bundan sonra bu şuranın önəmi və proseslərdə iştirakı nələri dəyişə bilər?***

-Qeyd edim ki, Türkiyənin hakim partiyasının sədr müavini Binəli Yıldırım Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) gələn ay keçiriləcək zirvə görüşündə sədrliyin Türkiyəyə keçəcəyini bildirdi. Binəli Yıldırımın sözlərinə görə, növbəti zirvə görüşündə Türkmənistan Türk Şurasına tamhüquqlu üzv olacaq. Beləliklə 6 dövlət - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan təşkilata tamhüquqlu üzv olacaq. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdiriləndək “Türk Dövlətləri Təşkilatı” olacaq. Macarıstan başda olmaqla müşahidəçi üzv olmaq istəyən 15 ölkə isə növbədə gözləyir. Türk Şurasında müşahidəçi olan Türkmənistanın quruma üzvlük istəyi təşkilatın gücünü və cazibəsini artıracaq. Bundan əvvəl Özbəkistan da Türk Şurasına qayıtmışdı.

***-Maraqlıdır, Türk Şurasına yeni üzvlərin qəbulu və müşahidəçilərin artımı niyə əhəmiyyətlidir?***

-Birincisi, qurumun adı Türk Şurasıdırsa, burada türk soyuna və dilinə bağlı bütün dövlətlərin toplanması vacibdir. Əks halda Türk Şurası tam olmayacaq. Deməli, Türkmənistanın Türk Şurasına qoşulması ilə təşkilat bütün türkdilli dövlətləri əhatə etmiş olacaq. İkincisi, türkdilli dövlətlər başqa regional təşkilatların da üzvləridirlər. Bunlardan Avrasiya İqtisadi Birliyini, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını və Şanxay Əməkdaşlıq Təşkilatını göstərmək olar. Birinci iki təşkilatda əsas dövlət Rusiyadır, Şanxay Əməkdaşlıq Təşkilatında isə Rusiya ilə yanaşı Çinin də rolu böyükdür. Rusiya və Çinin türkdilli dövlətlərlə sərhədi var. Bu baxımdan türkdilli dövlətlərin də öz aralarında siyasi, iqtisadi və gələcəkdə hərbi inteqrasiyanı gücləndirmək hədəfi var.Üçüncüsü, Azərbaycanla Türkiyə Zəngəzur dəhlizi vasitəsilə bir-biri ilə quru yolla birləşəcəklər. Zəngəzur dəhlizi Mərkəzi Asiyanın türkdilli dövlətləri üçün də vacibdir. Onlar bu yolla Türkiyəyə çıxış imkanı əldə edəcəklər. Eləcə də Türkiyə Zəngəzur dəhlizi və Xəzər dənizi üzərindən Mərkəzi Asiyanın türkdilli ölkələrinə giriş imkanı qazanacaq. Türkmənistanın Türk Şurasına qoşulması səbəblərindən biri də budur. Digər tərəfdən Türkiyə və Azərbaycan Türkmənistan qazının öz ərazilərindən Avropa bazarlarına daşınmasında maraqlıdırlar. Aşqabad da bunu istəyir. Buna görə də yaxın gələcəkdə Türkmənistan qazının Xəzər dənizinin dibi, o cümlədən Azərbaycan və Türkiyə üzərindən alternativ bazarlara çıxışı müzakirə predmeti olacaq. Bu müzakirələri Türk Şurası çərçivəsində də aparmaq olar.

Dördüncüsü, Azərbaycanın ikinci Qarabağ savaşını qazanmasından sonra Türkiyə ilə siyasi və hərbi ittifaqı güclənib. Türkiyə-Azərbaycan hərbi ittifaqı Mərkəzi Asiyanın türkdilli dövlətlərinin diqqətini cəlb edib. Qazaxıstan və Özbəkistan Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməyi düşünürlər. Türk Şurası çərçivəsində türkdilli dövlətlərin birgə hərbi təlimlərinin keçirilməsi də mümkündür.

Beləliklə, Türk Şurası çərçivəsində inteqrasiyanın güclənməsi üçün perspektivlər var. Türk Şurası başqa dövlətlərə qarşı yönəlməyib. Əksinə, Türk Şurası digər dövlətlərlə də əməkdaşlığın genişləndirilməsini ehtiva edir. Təsadüfi deyil ki, ərazisində Tatarıstan, Başqırıstan, Morvodiya, Tuva, Altay, Çuvaş kimi türkdilli bölgələr olan Rusiya da Türk Şurasına maraq göstərir.

***Z.Məmmədli***



# Etibar Pirverdiyevin biznesmen, yoxsa avtoş oğlu?..

## Həftənin replikası: məmurlar vəzifələrini tərk edir, lakin övladları öz zərərli vərdişlərini yox...



***Bir vaxtlar məmur balalarının quduрğanlığı bütün əndazələri aşmış, iş o yerə çatmışdı ki, bu ölkə mətbuatının aparıcı mövzularından birinə çevrilmişdi.***

İş o yerə çatmışdı ki, Prezident də məsələyə münasibət bildirmiş, övladları nə qanunları, nə də milli-mənəvi dəyərləri saya salan vəzifəli şəxslərə kəskin xəbərdarlıq etmişdi. Dövlət rəhbəri keçirdiyi müşavirələrdən birində quduрğanlıq edən məmur övladlarını sərt tənqid etmiş və bildirmişdi ki, belə hallara yol verən məmur və məmur övladları dərhal cəzalandırılacaq.

Son illərdə ölkədə həyata keçirilən islahatlar, yuxarı məmur eşalonunda ciddi dəyişikliklər "papaların gül balaları" barədə xəbərlərin azalmasına gətirib çıxarıb. Düzdür, yenə də ara-sıra hansısa vəzifəli şəxsin övladının qanunsuz hərəkəti barədə məlumata rast gəlinir. Lakin hər halda bu istiqamətdə müsbətə doğru böyük dəyişiklik var. Həm ölkə başçısının məlum məsələdə tutduğu sərt mövqe, həm bir sıra məmur övladlarının özləri və ataları barədə siyasi və hüquqi müstəvidə atılan konkret addımlar, həm də yuxarı məmur eşalonunda genişmiqyaslı təmizləmə öz bəhrəsini verib.

Bəs bizim birdən-birə bu mövzunun üzərinə qayıtmağımıza səbəb nədir?

Məsələ burasındadır ki, yola salmaqda olduğumuz həftə xəbər saytlarındakı bir məlumat çoxlarının diqqətindən yayınsa da, bizə maraqlı təsir bağışladı. Həmin məlumatda deyilirdi ki, Bakıda sürət həddini aşan sürücü yolda təhlükəli anlar yaşadıb. 99-EP-009 dövlət nömrə nişanlı "Porsche" markalı avtomobilin sürücüsü sentyabrın 20-i paytaxtın hava limanı yolunda hərəkət edən zaman sürət həddini aşıb. Avtomobilin sürəti o qədər yüksək olub ki, bir neçə saniyəyə gözdən itib.

Yerli KİV-in araşdırmasına görə, "Porsche"nin sürücüsü "Azərenerji"nin sabiq rəhbəri Etibar Pirverdiyevin oğlu Elvin Pirverdidir.

Qeyd edək ki, E.Pirverdi Londonda təhsil alıb və adı atasının biznes imperiyasında bir neçə dəfə hallanıb. İndi isə o "avtoş" kimi gündəmə gəlir.

Üstəlik, məlum xəbərdə adı hallanan şəxslərin buna reaksiya verməməsi, yayılan məlumatı təsdiqləməməsi, təkzib belə etməməsi sözügedən sürücünün həqiqətən də "Azərenerji"nin sabiq rəhbərinin oğlu olmağa əsas verir. Bundan əvvəl isə sabiq nazirlərdən birinin övladının radikal dini təriqətlərdən birinə qoşulduğu xəbəri yayılmışdı. Bildirilirdi ki, sabiq kənd təsərrüfatı naziri İsmət Abbasovun Londonda yaşayan, elə orada da biznes fəaliyyəti ilə məşğul olan və hədsiz dərəcədə böyük sərvət sahibinə çevrilən oğlu Yunis Abbasov bununla da kifayətlənməyərək İngiltərə paytaxtında radikal dini təriqətlərdən birinin üzvünə çevrilib. İnsafən, onun atası bu məlumatı yalan və böhtan adlandırmışdı. Ancaq ictimai rəy eks-nazirin təkzibini yetərli saymamışdı. Cəmiyyət belə düşünür ki, "od olmayan yerdən tüstü çıxmaz..."

Biz bunu yenidən ona görə xatırladırıq ki, bir çox məmurlar vəzifələrindən uzaqlaşdırılır, lakin onların övladları ilə bağlı qalmaqallı xəbərlər elektron və yazılı mediada yer almağa davam edir. Kimləri avtoşluqla gündəmə gəlir, kimləri xaricdəki lüks həyatı, dəbdəbəli əyləncəsi ilə... Bir sözlə, məmurlar vəzifələrini tərk edir, lakin övladları öz zərərli vərdişlərini yox... Bir zamanlar ataları vəzifələrindən ikiəlli yapışdıqları kimi indi də özləri həmin vərdişlərindən ikiəlli yapışırlar.

Nəticədə günlərin bir günü məlum olur ki, məsələn, Etibar Pirverdiyevin biznesmen kimi tanıdığımız oğlu "avtoşluq" edir. Ya da bir qeyrisinin xaricdəki bərkgedən nüfuzlu universitetlərindən birində oxumuş oğlu Dubayda gecə həyatının dadını çıxarır, kazinolarda gününü gün edir.

Hər halda ağır dərddir, özü də deyəsən, o qədər ağır dərddir ki, dərmanı yoxdur...

***Sənan Mirzə***

# Əlillik və sosial ödənişlər alan qazilərin sayı açıqlandı

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərdən ibarət işçi qrupu Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini davam etdirir.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, artıq Vətən müharibəsinin 2000 nəfərədək iştirakçısına ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı həyata keçirilib. Əlillik təyinatından dərhal sonra proaktiv qaydada onlara müvafiq sosial ödənişlər təyin edilib.

Qazilərin əlilliyinin qiymətləndirilməsi Nazirlər Kabinetinin Qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların ilk mərhələdə əyani müayinəsi keçirilməklə və müvafiq sənədləşdirmə işləri görülməklə aparılır.

Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə təqdim olunur. Həmin şəhadətnamə və tibb müəssisələri tərəfindən elektron sistemə daxil edilmiş göndəriş (forma 88) əsasında, yekun mərhələ olaraq əlilliyin qiymətləndirilməsi aparılır.

# MTN generalına qarşı 800 minlik iddia qaldırıldı



***Azərbaycanın ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Hərbi əks-Kəşfiyyat Baş İdarəsinin sabiq rəisi general Şirinov Nizami Talış oğlu və qurumun tərkibində olan idarələrin rəisləri işləmiş Elcan Abdullayev və Elman Tahirov, əməliyyat müvəkkili işləmiş Nadir Nəzirovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.***

"Unikal" xəbər verir ki, Bakı Hərbi Məhkəməsinin hakimi Camal Ramazanovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmədə elan olunub ki, zərərçəkmiş Mirzəli Yusifov mülki iddia qaldırıb. O, təqsirləndirilən şəxslərdən 315 min ABŞ dolları (535 500 manat) maddi ziyanın, 300 min manat isə mənəvi ziyanın ödənilməsini tələb edib.

Daha sonra N.Şirinovun vəkili vəsatətlə çıxış edib. O, müdafiə etdiyi şəxsin barəsindəki həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasını xahiş edib.

Dövlət ittihamçısı isə vəsatətin qəbul edilməməsini istəyib. Prokurorun sözlərinə görə, istintaq zamanı əldə edilən materiallar ona dəlalət edir ki, N.Şirinovun ev dustaqlığına ehtiyac yoxdu: "Səhhəti ilə bağlı da təyin edilmiş ekspert qrupunun rəyinə əsasən, onun təcridxanada cəzasını çəkməsində heç bir problem yoxdu"

Məhkəmə vəsatəti təmin etməyib.

Məhkəmənin baxış iclası oktabrın 7-nə təyin olunub.

# Milli Məclisin ilk iclasının vaxtı və gündəliyi açıqlanıb

***Milli Məclisin payız sessiyasının ilk plenar iclasının vaxtı və gündəliyi açıqlanıb.***

"Unikal"ın məlumata görə, sentyabrın 30-da keçiriləcək toplantının gündəliyinə 11 məsələ daxil edilib. Bunlar aşağıdakılardır:

1. Milli Məclisin 2021-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında.
2. Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi (birinci oxunuş).
3. "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunun layihəsi.
4. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunun layihəsi.
5. Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanununun layihəsi (birinci oxunuş).
6. "Valyuta tənzimi haqqında", "Kredit ittifaqları haqqında", "Banklar haqqında", "Poçt haqqında", "Mühasibat uçotu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Kredit büroları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi (birinci oxunuş).
7. "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanunun layihəsi (birinci oxunuş).
8. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunun layihəsi.
9. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi.
10. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında qanunun layihəsi.
11. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu arasında məktublar mübadiləsi formasında bağlanmış Sazişin təsdiq edilməsi haqqında" qanunun layihəsi.




# Hökumət narahatdır

## İstehlak kreditləri niyə artır?-AÇIQLAMA

***Son dövrlərdə iqtisadi müşavirələrdə hökumət rəsmilərinin ən çox narahatlıq ifadə etdiyi mövzulardan biri istehlak kreditlərinin payının ümumi kredit portfelində artması ilə bağlıdır.***

Azərbaycan Mərkəzi Bankdan verilən məlumata görə, 2021-ci ilin avqust ayında bankların kredit portfeli 240.3 milyon manat artaraq 15 milyard 206.8 milyon manata çatıb.

İnsanların gəlirlərinin onların xərclərini tam ödəyə bilməməsi və insanların maliyyələşmə alternativlərinin (qiymətli kağızlar) kredit məhsullarına tələb yaradan ən vacib amildir.

İstehlak kreditlərinin həcminin artmasına təsir imkanı olan digər bir amil də ölkədə kredit kartlarından istifadənin genişlənməsidir.

İstehlak kreditlərinin payının artmasından narahatlıq ifadə edən tərəflərin məsələyə daha obyektiv yanaşmaq üçün "istehlak kreditləri niyə artır?" qədər, "biznes kreditləri niyə artmır?" sualı ətrafında düşünməsi də faydalıdır.

Milli Məclisin deputatı Vüqar Bayramov Bakıvaxtı.az-a bildirib ki, ötən ilin sonu ilə müqayisədə bu ilin 8 ayı ərzində ümumi kredit portfeli 6.9 faiz, biznes kreditlərinin həcmi 3.8 faiz artasa da istehlak kreditlərinin həcmi 12.0 faiz artıb: "Göründüyü kimi, istehlak kreditlərinin həcmində artımlar ümumi kredit portfeli və biznes kreditləri ilə müqayisədə daha çoxdur və iki rəqəmli artım faizi ilə ifadə olunur. Digər tərəfdən, istehlak kreditləri üzrə orta faiz biznes kreditləri ilə müqayisədə təxminən 2 dəfə yüksəkdir və bu da kredit götürənlərin daha çox borclanmasına səbəb olur".

Deputat qeyd edib ki, bankların istehlak kreditləşməsinə daha çox meyillənməsi həm problemli kreditlərinin həcminin artması və həm də real sektorunun maliyyə tələblərinin tam ödənilməməsi baxımdan arzuolunan deyil: "İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, real sektorunun inkişafında biznes kreditlərinin xüsusi payı olur. Digər tərəfdən, istehlak kreditləşməsinə meyl bank sektorunda yeni çağırışlar yaradır və bu da sektorun dayanıqlığı baxımdan arzuolunan deyil.

Bu kontekstdən, Mərkəzi Bank tərəfindən biznes kreditləşməsinin təşviq edilməsi və istehlak kreditlərinin həcminin optimallaşdırılması ilə bağlı daha sistemli fəaliyyətlərin həyata keçirilməsi məqsədəuyğundur. Stimullaşdırıcı metodlar ilə bankların biznes kreditləşməsinə marağının daha artırılmasına ehtiyac var".

# Vidadi Muradov dərsi...

## "Azərxalça"dakı 22 milyon manatlıq mənimsəmə hansı vacib həqiqəti ortaya çıxardı?

***Yola salmaq üzrə olduğumuz həftə "Azərxalça" ASC-nin İdarə heyətinin hazırda həbsdə olan sabiq sədri Vidadi Muradovun 21 milyon 673 min manat məbləğində pul vəsaitini mənimsədiyi rəsmi olaraq açıqlandı.***

Belə ki, Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, V.Muradovun vəzifədə işləyərkən təsisçisi olmaqla faktiki rəhbərliyi həyata keçirdiyi "Azər-İlmə" MMC-nin Bakı şəhəri ərazisində yerləşən inzibati binasının "Azərxalça" ASC-yə mövcud bazar qiymətlərindən yüksək qiymətə icarəyə verilməsi, "Azərxalça" ASC-yə məxsus pul vəsaitinin xalça istehsalı üçün nəzərdə tutulan ipin alınması üçün formal müqavilənin bağlanması yolu ilə ayrı-ayrı hüquqi şəxslərə məxsus bank hesablarına köçürülərək sonradan nağdlaşdırılması, ölkə ərazisində tikintisi həyata keçirilmiş 23 müəssisə üzrə smeta sənədlərində iş həcmlərinin və qiymətlərin əsassız olaraq şişirdilməsi, işlərin daha ucuz və keyfiyyətsiz işlərlə əvəz edilməsi və ya yerinə yetirilməməsi və digər qanunsuz üsullarla ona etibar edilmiş ümumilikdə 21 milyon 673 min manat məbləğində pul vəsaitini mənimsəmə və israf etmə yolu ilə talaması, habelə xüsusilə külli miqdar təşkil edən cəmi 640 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən qəsdən yayınması, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və vəzifə saxtakarlığına yol verməsinə əsaslı şübhələr müəyyən edilib.



Qısa vaxtda bu qədər fantastik pulların mənimsənilməsi cəmiyyətdə haqlı olaraq geniş əks-səda doğurdu. "Qısa vaxtda" deyirik, çünki V.Muradov adıçəkilən müəssisəyə cəmi 4 il rəhbərlik edib. Yerli mediada da qeyd olunduğu kimi, bu illər heç də "neft bumu"na, "qara qızıl"ın 150 dollara olduğu, yəni büdcənin aşıb-daşdığı, korrupsiyanın, talançılığın sözün əsl mənasında fontan vurduğu vaxtlara təsadüf etmir. Lakin buna baxmayaraq, Vidadi Muradov adlı xırda korrupsioner, "Azərxalça" kimi kiçik müəssisədən dördcə ilə 22 milyon(!) manat vəsait oğurlamağa nail olub. Burada bir məqam da maraqlıdır ki, talanan vəsait 22 milyon olduğu halda, V.Muradovun özünün və ailə üzvlərinin üzərinə həbs qoyulan əmlakının dəyəri 30 milyondur. Sual yaranır ki, bəs qalan 8 milyon necə və kim tərəfindən "qazanılıb"?!

Aydın görünür ki, hələ də bir çox vəzifəli şəxslər ölkəyə, dövlətə, onun sərvətinə qarşı elə amansız, yırtıcı, qəddar münasibət bəsləyirlər ki, cəmi bir neçə il içində insanın ağlına gəlməyəcək miqyasda və məbləğdə talançılığa imza atırlar.

Məsələnin başqa bir ilginc tərəfi də var. İqtisadçı-ekspert Natiq Cəfərlinin şəxsi facebook səhifəsində yazdığı kimi, korrupsiya ilə bağlı problemlər olmasaydı və büdcədən ayrılan maliyyə vəsaitləri normal, şəffaf şəkildə xərclənsəydi, indi Azərbaycanda işsizlik problemi yaşanmazdı. Deməli, vətəndaşların gəlir səviyyəsi indikindən yuxarı olardı, çünki ölkədə daha çox iş yerləri - zavod və fabriklər açılardı. Azərbaycanın xarici ticarətində qeyri-neft sektorunun payı yüksələrdi, bu isə ölkəyə xarici valyuta axınının artması deməkdir.

Vidadi Muradovla bağlı baş verənlər eyni zamanda bir sadə həqiqəti də ortaya qoyur: bazar iqtisadiyyatı şəraitində dövlət müxtəlif istehsal sahələrində birbaşa idarəetmədən əl çəkməlidir. Yenə iqtisadçıların vurğuladığı kimi, dövlət niyə, məsələn, xalça toxusun ki? Axı xalça toxumaq o qədər də böyük texnoloji proses deyil. Dövlət xalça toxuyanlara dəstək olmaq istəyirsə, bunu onlara faizsiz kredit verməklə, müxtəlif vergi və gömrük güzəştləri etməklə də həyata keçirə bilər.

Bir sözlə, dövlətin iqtisadiyyatda birbaşa oyunçu olmaq istəyi yeni dövrün tələbləri ilə uyğunlaşmır və qətiyyən doğru yanaşma deyil. Bunun nə qədər zərərli praktika olduğunu Vidadi Muradov kimi irili-xırdalı korrupsionerlərin timsalında aydın görürük: onların rəhbərlik etdikləri müəssisələr, dövlət şirkətləri zərər və borc bataqlığında çabalayır, lakin özləri yağ-bal içində üzürlər, fantastik sərvət sahibinə çevrilirlər.

Odur ki, dövlətin iqtisadiyyatda birbaşa oyunçu olmaq təcrübəsinə son qoyulmalıdır. Son qoyulmalıdır ki, qazanan hansısa yaramaz və yarıtmaz məmur yox, dövlət və vətəndaş olsun.

***Toğrul Əliyev***

# Səfər Mehdiyev səfirlə görüşdü

***Sentyabrın 23-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb.***

DGK-dan "Unikal"a bildirilib ki, Səfər Mehdiyev Azərbaycanla İsrail arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən razılığını bildirərək, bütün sahələrdə olduğu kimi, gömrük sferasında da səmərəli və işgüzar əlaqələrin qurulduğunu söyləyib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsindən bəhs edən Komitə sədri Qarabağ münaqişəsinin sona yetməsi nəticəsində regionda yeni iqtisadi imkanların yarandığını deyib. İsrail Dövlətinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi üçün minnətdarlığını bildirən Səfər Mehdiyev işğaldan azad edilən ərazilərin bərpasında İsrail şirkətlərinin iştirakının da xüsusi əhəmiyyətini qeyd edib.

Azərbaycanda həyata keçirilən islahatlar çərçivəsində gömrük sistemində aparılan modernləşdirmə layihələri barədə də məlumat verən DGK sədri vurğulayıb ki, gömrük xidmətində daha çevik və dinamik strukturun formalaşması ölkənin tranzit və ixrac potensialının artırılmasına, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə şərait yaranıb.



Azərbaycanla İsrail arasında ticarət dövriyyəsindən də bəhs edən Səfər Mehdiyev gömrük orqanlarının da bu sahədə mühüm rol oynadığını bildirib. İki ölkənin gömrük orqanlarının qarşılıqlı münasibətlərinə toxunan Komitə sədri qarşılıqlı səfərlərin, məlumat və təcrübə mübadiləsinin əməkdaşlığın gücləndirilməsində xüsusi rol oynadığını deyib.

Səmimi qəbula görə təşəkkürünü bildirən İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə növbəti görüşündən məmnunluğunu da ifadə edib.

Corc Dik Vətən müharibəsində qazanılan qələbə münasibətilə təbriklərini çatdırıb, işğaldan azad olunan ərazilərə səfərinin onda zəngin təəssüratlar yaratdığını bildirib. İsrail Dövlətinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayan səfir iki ölkə arasında iqtisadi, siyasi, mədəni əlaqələrin hazırkı durumunu yüksək qiymətləndirib, gömrük orqanları arasındakı əlaqələrdən bəhs edib və birgə əməkdaşlığın perspektivlərindən danışıb. Daha sonra görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Bəzi məmurların dövlətə 100 milyonluq zərbəsi...

## 10 il öncə ortaya atılan təklifi sabotaj edənlərin marağı və məqsədi nədir?

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanda uzun illərdən bəridir müzakirə mövzusu olan sənədsiz evlər məsələsi yenidən gündəmə gəldi. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) həmin evlərin sənədləşdirilməsi prosesinin nə zaman başa çatacağı ilə bağlı məsələyə aydınlıq gətirdi, daha doğrusu, gətirməyə çalışdı. Çünki açıqlama yenə ümumi sözlərdən ibarət idi və hər kəsi düşündürən suala konkret cavab verilmədi.***

Qurumdan bildirildi ki, müvafiq hüquq müəyyənedici sənədlər olmadan inşa edilmiş tikililər və onların yerləşdiyi torpaq sahələrinin inventarlaşdırma işləri hazırda davam etdirilir. Sənədsiz evlərin inventarlaşdırılması ilə bağlı vətəndaşların hər hansı idarəyə müraciət etməsinə ehtiyac yoxdur. Komissiya üzvləri bütün fərdi yaşayış evləri üzrə zəruri məlumatları yerində toplayırlar.

İnventarlaşdırma işləri başa çatdıqdan sonra aidiyyəti qurumlar tərəfindən nəticələrin təhlili aparılacaq. Təhlillər nəticəsində bu sahə üzrə qanunvericilikdə dəyişikliklərlə bağlı aidiyyəti qurumlara təqdim olunması üçün təkliflərin hazırlanacağı gözlənilir.

Buradan çıxan nəticə odur ki, sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı ortada hətta real təkliflər də yoxdur. Bu isə prosesin hələ çox uzanacağını söyləməyə imkan verir. Halbuki illərdən bəridir mütəxəssislər bir fikirdə həmrəydirlər: "Sənədsiz evlər mümkün olduğu qədər tez sənədləşdirilməlidir!

Lakin, dəfələrlə vurğuladığımız kimi, problem sözün həqiqi mənasında dalana dirənib. Az qala 10 ildir ki, aidiyyatı qurumlar bu məsələ ilə bağlı həlledici addım ata, problemi yoluna qoya bilmirlər. Bu isə haqlı olaraq belə təəssürat yaradır ki, sənədləşmə işi kimlərinsə marağına cavab vermir. Əlbəttə, bunun səbəb yaxud səbəblərini demək çətindir. Lakin qanunsuz tikililərin sənədləşdirilməsi yubandıqca dövlət xəzinəsinin hər il külli miqdarda vəsaitdən məhrum olduğu da bir gerçəklikdir.

Son vaxtlar sənədləşmə məsələsinin yubanmasını "əsaslandırmaq" üçün yeni bəhanə atılıb. Bir müddət əvvəl bildirilmişdi ki, hazırda sənədsiz tikililərin inventarlaşdırılması işləri davam edir, ancaq bununla bağlı yaradılmış komissiyaların fəaliyyətində koronavirus pandemiyası səbəbilə fasilələr olur.

Əvvəla, pandemiya ilyarımdır ortaya çıxıb, qanunsuz tikililərin sənədləşdirilməsi zərurətindən, bu istiqamətdə addımlar atılmağa başlandığından isə 10 ildən çoxdur danışılır.

İkincisi, əvvəlki yazılarda da vurğuladığımız kimi, əksər ekspertlərin fikrincə, sənədləşdirmə prosesini sabotaj eləyən elə icra hakimiyyətlərinin özləridir. Onlar hansısa səbəblərdən bu işin sürətlənməsində maraqlı deyil.

Hələ 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini demişdi: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər".

Amma görünən odur ki, ölkə başçısının dediyi kimi, ötən müddətdə bu xoşniyyətli təşəbbüsdən qaz vurub qazan dolduranlar var. Əks halda sənədləri qaydasında olan vətəndaşları min bir bəhanə ilə get-gələ salmazdılar.

Son illərdə ölkədə genişmiqyaslı kadr və struktur islahatları aparılıb. Bu islahatların qanunsuz evlərin sənədləşdirilməsi prosesinin süni yubadılmasının qarşısını alacağına dair gözləntilər var idi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, hələlik bu gözləntilər özünü doğrultmayıb. Hələ də hansısa "gizli əllər" məsələnin həllini dalana dirəməkdə davam edirlər. Elə ekspertlər də eyni qənaətdədirlər; məsələn, "MBA Konsaltinq" Şirkətinin rəhbəri Nüsrət İbrahimli açıqlamalarının birində demişdi ki, sənədsiz evlərin qeydiyyatı məsələsinin həll olunmamasına obyektiv və subyektiv amillər əngəl olur. Sitat: "Subyektiv amillər olaraq onu deyə bilərəm ki, sənədsiz evlərin qeydiyyatının ləngiməsi yəqin kiminsə maraqlarının tapdanması ilə əlaqədardır...".



Unutmayaq ki, qeydiyyatsız evlərin sənədləşdirilməsi prosesinin yubanması həm vətəndaşlara, həm də dövlətə ciddi ziyan vurur. Müstəqil ekspertlərin hesablamalarına əsasən, qeydiyyatsız evlərin mövcudluğundan hər il dövlət büdcəsinə təxminən 100 milyon manatdan artıq vəsaitin daxil olmasının qarşısı alınır. Evlərin qeydiyyatsız olması həmin mülk sahiblərinin əmlak vergisindən kənarda qalması ilə nəticələnir. Bu da hər il dövlət büdcəsinə təxminən 100 milyon manatdan artıq vəsaitin daxil olmasının qarşısını alır. Görünür, hansısa maraqlı qüvvələr sənədləşdirməni yubatmaqla həmin böyük pulları dövlətin xəzinəsindən yayındırmağa, öz ciblərinə yönəltməyə çalışırlar.

Bundan başqa, yenə bəzi ekspertlərin fikrincə, sənədləşmə normal qaydada həyata keçirilərsə, bu, bir çox məmurların maraqlarına toxuna bilər. "Bəzi sahələrə məmurların gözü düşübsə, onlara sənədsiz evlərdə yaşayanları ərazidən çıxarmaq daha asandır. Qanunsuz tikililər adı ilə öz niyyətlərini gerçəkləşdirmək daha asandır" - onlar belə deyirlər.

Yuxarıda sadalanan faktorları ciddiyə almaq lazımdır, əks halda adi bir problemin 10 ildən çoxdur heç cür həllini tapmamasına məntiqi izah vermək çətindir.

Üstəlik, dövlətin maraqlarını və vətəndaşın mənafeyini hansısa məmurların sabotaj eləməsi də yolverilməzdir.

***Hüseyn İsgəndərov***

# Valeh Ələsgərova yeni vəzifələr verildi

***Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə bir neçə ölkə arasında komissiyanın tərkibində dəyişiklik edilməsi ilə bağlı sərəncamlar imzalayıb.***

Unikal.org xəbər verir ki, dövlət başçısı "Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında", "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" sərəncamlarında dəyişiklik edilib.

Dəyişikliklərə əsasən, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri adı çəkilən komissiyaların tərkibinə əlavə edilib.

Xatırladaq ki, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Feyruz oğlu Ələsgərovdur.

# Əks-göstəriş sertifikatı almaq istəyənlərin nəzərinə!

***Bakıda bir qrup şəxs əks-göstəriş sertifikatını almaq istəsə də, problemlə üzləşiblər. Qeydiyyatda olduqları poliklinikalar müəyyən səbəblər göstərərək vətəndaşlara sertifikat verməkdən imtina ediblər.***

Unikal.org İTV-yə istinadən xəbər verir ki, poliklinikaya bütün hazır sənədlərlə müraciət edənlər arasında mənfi cavab alanlar və həkim tərəfindən kobud rəftarla qarşılaşanlar az deyil.

Ekspertlər də təsdiq edir ki, əks-göstəriş sertifikatının verilməsi prosesində müəyyən nöqsanlar mövcuddur.

Qeyd edək ki, koronavirusla bağlı əks-göstəriş sertifikatı almaq istəyənlər xəstəlikləri barədə əsaslı sənədləri (həkim rəyi, aparılmış müayinələrin nəticələri) təqdim etməlidir. Hər bir müraciət edən şəxs birinci növbədə poliklinikaya, öz sahə həkiminə getməlidir. Əgər şəxsin ambulator kartında həmin xəstəliyi təsdiq edən göstəricilər varsa, həmin xəstələr protokollaşdırılacaq.

ÜST-ün təqdim etdiyi siyahıda peyvənd vurulması məqbul sayılmayan xəstəliklər var. Əks göstəriş sertifikatı bu şəxslərə verilir:

- COVID-19 xəstəliyinə qarşı vaksinin tərkibindəki hər hansı bir maddəyə kəskin allergik reaksiyası olanlar;
- Xroniki xəstəliklərin kəskinləşməsi dövründə
- Hamilə qadınlar;
- Süd verən analar;
- Onkoloji xəstələrin aktiv müalicə aldıqları dövrdə.

# ÜST yoluxucu olmayan xəstəliklərə qarşı mübarizə fondu yaratdı

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Birləşmiş Millətlər Uşaq Fondu (UNICEF) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına əsasında Yoluxucu olmayan xəstəliklərə qarşı mübarizəni sürətləndirmək və insanların psixi sağlamlığını yaxşılaşdırmaq fondu yaradılıb.***

Bunu Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adan Qebreyesus BMT-də keçirilən iclasda çıxışı zamanı deyib.

O deyib: "Müvafiq vəsait ayrılmadan yoluxucu olmayan xəstəliklərə qarşı mübarizəni genişləndirmək mümkün deyil".

ÜST rəhbərinin sözlərinə əsasən, dünya ölkələri yoluxucu olmayan xəstəliklərin qarşısının alınması və nəzarət edilməsi, insanların psixi sağlamlığının yaxşılaşdırılması üçün "dövlətlər səviyyəsində vəsait ayrılması artırılmalıdır".

"Qlobal ictimayətin dəstəyi də əsasdır. Bu baxımdan, ÜST, UNICEF və BMT-nin İnkişaf Proqramının ölkələrin yoluxucu olmayan xəstəliklərlə mübarizə aparmaq və insanlarda psixi sağlamlığı gücləndirməsinə yönələcək fəaliyyətinin Çox tərəfdaşlı fondun təsis edildiyini bildirməkdən məmnunam. Bütün inkişaf etmiş ölkələri bu fonda dəstək verməyə çağırıram", - Gebreyesus bildirib.

# Ağciyərləri təmizləyən QİDALAR

***Siqaret çəkənlər mütləq oxumalıdırlar! Siqaret çəkən adamlar öz orqanizmlərini tədricən zəhərləyirlər. Siqaret çəkən adamların ilk növbədə ağciyərləri mənfi təsirə məruz qalır. Hər nəfəsalma zamanı daxilə gedən siqaret tüstüsü ağciyərləri xaricdən örtən kiçik tükcüklərin mikroskoipik yanmalarına, atrofiyalaşmasına və ölməsinə səbəb olur. Nəticədə isə ağciyərlərə qərtan toplanır və selik əmələ gəlir ki, bu da xroniki öskürməyə səbəb olur. Ağciyərləri örtən tükcüklər özünəməxsus bərpaedici xüsusiyyətə malikdir. Onların yenidən bərpa olunması üçün siqaretdən imitina etmək kifayətdir.***

Siqareti ata bilməyənlər üçün isə yaxşı xəbər var. Belə ki, ağciyərlərdəki nikotin qətranını təmizləmək üçün 4 qida maddəsindən istifadə etmək kifayətdir. Ağciyərləri necə təmizləmək lazımdır?

Ağciyər zədələnmələrindən yalnız siqaret çəkənlər əziyyət çəkmir. Şəhər əhalisinin ağciyərləri demək olar ki, hər gün maşınlarda havaya buraxılan zəhərli qazlardan və kirli havadan da zədələnir. Buna görə də məqaləni diqqətlə oxuyub bu qidalardan istifadə etmək lazımdır.

**1 Qreypfurt**

Bu sitrus meyvəsinin tərkibi hüceyrələrin fəaliyyətini yaxşılaşdıran antioksidantlarla zəngindir. Qreypfurtun tərkibində olan maddələr hüceyrə toxumalarının zəifləməsinin qarşısını alır və onların inkişafını sürətləndirir. Mütəxəssislər siqaret çəkənlərə ağciyər riskini aradan qaldırmaq üçün tünd turşu dadına malik olan qreypfurt yeməyi məsləhət bilir.

**2 Sarımsaq**

Sarımsaq yüzlərlə xəstəliyi müalicə edir. O oraqnizmə müalicəvi təsir göstərir və sağalmanı sürətləndirir. Ağ ciyər xəstəliklərinin müalicə və profilaktikası üçün sarımsaq yemək çox faydalıdır.

**3 Zəncəfil**

Zəncəfil antibakterial və virus əleyhinə təsirə malikdir. Zəncəfil damarları genişləndirir, bəlğəmi xaric edir və bronxial kanalların regenerasiyasını sürətləndirir.

**4 Yerkökü**

Yerkökü A, C, E, K və B qrup vitaminləri ilə zəngindir. A vitamini hüceyrələrin və epitel toxumalarının vəziyyətini yaxşılaşdırır. Ağ ciyər toxumalarına dəyən nikotin zəhərlənmələrini təmizləmək üçün yerkökünü çiy halda yemək lazımdır. Yerkökü şirəsi isə insan sağlamlığı üçün lazım olan vitamin və mineral deposudur.

Əgər siz iradənizə üstün gəlib siqareti atmısınızsa, o zaman ağciyərlərinizi təmizləyin. Bu qidalardan istifadə etmək sizin ağciyər funksiyanızın bərpasına və yaxşılaşmasına səbəb olacaq. Bu zaman siz yaxşılaşmanı beyin fəaliyyətinizdə, dad reseptolarınızda hiss edəcəksiniz. Bu zaman siqaret qoxusu sizi özünə cəlb etməyəcək və ağzınıza qoyduğunuz hər bir qidanın dadı sizə xoş təsir bağışlayacaq.

# "Narkomaniyaya yox deyək" - gələcəyimizi xilas edək...




***"XXI əsrin çağırışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır". Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin narkotiklərlə bağlı məlum çıxışı ölkə ərazisində "ağ ölüm"lə bağlı mübarizəyə təkan verdi.***

Bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya dinindən, dilindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlığa, zorakılığa və korrupsiyaya səbəb olaraq qlobal problemlərə çevrilib.

İctimaiyyətin diqqətini daim narkomaniya ilə bağlı problemlərə yönəltmək məqsədilə BMT tərəfindən 26 iyun - Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan olunub.

Azərbaycan 1992-ci ildə BMT-yə tamhüquqlu üzv olduqdan sonra BMT-nin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci il konvensiyasına qoşulub.

Ölkəmizdə narkomaniya ilə mübarizə məqsədilə "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə" üzrə Dövlət Komissiyası yaradılıb, bu mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilib.

Yaxşı, bəs narkotik nədir?

- Narkotik mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddədir. O, toksik maddə olduğundan insanın bütün orqanizminə, ürək-damar sistemindən tutmuş, sinir sisteminə qədər mənfi təsir göstərərək onun xarakterini dəyişir, qurban özünü idarə edə bilmir. Orqanizm zəifləyir, bədən arıqlayır, insanın fiziki gücü tükənir. Bu da son nəticədə aqressivliyə, cinayətkarlığa və ölüm hallarına gətirib çıxarır.

Uzun illərin araşdırmaları göstərir ki, narkomanlıq insanı həqiqətən də fiziki və ruhi cəhətdən şikəst edir, onun ömrünü qısaldır. Erkən yaşından narkotik qəbul etməyə başlayan insanın orta ömrü 35-40 il olur. Bu gün Azərbaycanda narkomaniya ilə mübarizə prioritetə çevrilib. Rəsmi məlumatlara görə, Azərbaycanda narkotiklər həm ölkəyə gətirilir, həm də ölkə ərazisində təbii yolla bitir və ya kultivasiya vasitəsilə yetişdirilir. Son dövrlərin bəlasına çevrilən və əsl adı "metanfetamin" olan psixatrik maddə gənclər arasında kütləvi istifadəyə çevrilib. Bununla bağlı müvafiq dövlət qurumları əməliyyatlar keçirir, onun satışı, həmçinin istifadəsi ilə məşğul olanlar demək olar ki, hər gün aşkar olunaraq məsuliyyətə cəlb edilir. 2020-ci ilin sonuna olan rəsmi məlumata əsasən, Azərbaycanda 33 min 788 nəfər rəsmi qeydiyyatda olan narkotik istifadəçisi var. Qeyd edək ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə qeydiyyata alınan 2356 nəfər narkotik istifadəçisi artıb. Bu il də görünən odur ki, narkotikdən istifadə edənlərin sayı ötən ilə nisbətən xeyli artıb. Məlumata görə, psixatrik maddələrdən istifadə edənlər, əsasən, 20-30 yaş aralığında, xüsusən də 24-25 yaşlı gənclərdir.

Məsələ ilə bağlı Unikal.org-a açıqlamasında Gələcək İntellektual İnkişafa Yardım İctimai Birliyinin sədri Kazım Məmmədov bildirib ki, ictimai təşkilatlar və cəmiyyətin digər üzvləri bu məsələdə eyni məsuliyyətlə iştirak etməli, həmrəylik nümayiş etdirməlidir:

"Öncə onu qeyd etməliyəm ki, narkomanlığa və narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə həmrəylik nümayiş etdirilməlidir, yəni, dövlət qurumları, İctimai təşkilatlar və cəmiyyətin digər üzvləri bu məsələdə eyni məsuliyyətlə iştirak etməlidir. Bu, elə bir bəladır ki, onunla mübarizədə fasiləyə və bir anlıq boşluğa yol verilməsi bütün zəhməti hədər edir. Müxtəlif regionlarda bu mövzuda həyata keçirdiyimiz təlim və monitorinqlərimiz onu göstərib ki, narkomaniyanın profilaktikası öncə ailədən başlamalı və məktəblə davam etməlidir".

K.Məmmədov narkomaniya ilə mübarizə aparmaq üçün ölkənin şəhər və rayonlarında siqaret, spirtli içki və psixotrop maddələrin istifadəsinin zərərləri haqqında mariflendirmə tədbirləri üçün başlanğıc yaşın orta hesabla 12-yə endirilməsi zərurətini vurğulayıb: ""Ağ ölüm" adlanan bu bəla ilə mübarizə üçün beynəlxalq təcrübəyə əsaslanaraq öz təcrübəmizi sizinlə bölüşə bilərik. Əvvəla yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün tədbirlər planı geniş formada hazırlanmalı və bu yaş qrupuna aid olan əhali istisnasız tədbirlərə cəlb edilməlidir. Şəhər və rayonlarda sürətlə yayılmaqda olan siqaret, spirtli içki və psixotrop maddələrin istifadəsinin zərərləri haqqında marifləndirmə tədbirləri üçün başlanğıc yaş, orta hesabla 12 yaşa endirilməlidir. Sosial vəziyyəti aşağı olan və risk altında yaşayan yeniyetmə və gənclər yetişdirilməli, onlara daima qayğı ilə əhatələndiyi hiss etdirilməli, eyni zamanda bu cür ailələrə psixoloji dəstək verilməli və həmin ailələrin üzvü olan yeniyetmə və gənclər ictimai fəaliyyətə stimullaşdırılmalıdır. Valideynlər arasındakı qarşıdurmaların, ünsiyyət problemlərinin, siqaret, spirtli içki və psixotrop maddələrdən istifadənin uşaqlara mənfi təsirləri valideynlərə mütəmadi izah edilməli, ailələr təsilli uşaq yetişdirmə mövzusunda məlumatlandırılmalıdır. Təhsil müəssisələrində davamlı olaraq şagirdlər üçün "Narkomaniyaya yox deyək" mövzusunda müsabiqələr təşkil edilməli, bu müsabiqələrdə də əyani göstərici kimi rəsm müsabiqəsinə üstünlük verilməlidir".

***Ağarza Elçinoğlu***

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Həsrətin bitdiyi gün!

### Şuşalı jurnalist Bəxtiyar Məmmədli: "İşğaldan azad olunmuş ərazilərə səfərlər "Böyük Qayıdış"ın ilk addımlarıdır..."






***Artıq bir müddətdir ki, 30 ildən sonra Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının sakinləri öz yurdlarına səfər edir, öz yurd yerlərinə yenidən qayıdırlar. Bu səfərlərə həm də işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın başlanğıcı da demək olar. Avqustun 26-da Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə bir qrup Şuşa sakininin 30 ildən sonra doğma şəhərinə səfəri baş tutdu. Şuşalılar ilk olaraq Cıdır düzündə oldular. Onlar Cıdır düzünü gəzib, ötən günləri yada salıb, xatirələrini bölüşüblər.***

Şuşaya səfər edən 52 sakin Qala divarları, Gəncə qapısı, şəhərin simvolları olan və Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən güllələbaran etdikləri Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan, Bülbülün heykəllərini, Yuxarı və Aşağı Gövhər Ağa məscidlərini, həmçinin öz evlərini də ziyarət edib. Qeyd edək ki, şuşalıların ilk səfəri 19 avqust tarixində baş tutmuşdu. Həmin vaxt 50 sakin 29 illik ayrılıqdan sonra öz doğma şəhərlərini görmək imkanı qazanmışdı.

Bu günlərdə şuşalılardan ibarət növbəti qrup öz doğma torpağına geri qayıdıb. Onların arasında jurnalist Bəxtiyar Məmmədli də var. Bəxtiyar "Unikal" qəzetinə açıqlamasında Şuşa təəssüratlarını bölüşüb. O, 30 il sonra dünyaya göz açdığı torpağa, ata-baba yurduna qayıtmağı "Böyük Qayıdış"ın ilk addımı adlandırıb. Həmsöhbətimiz illərdir həsrətini çəkdiyi torpağına, yurd yerinə geri dönməyi ən böyük xöşbəxtlik sayır: "

Şuşaya getmək evə getmək deməkdir. Kim öz evinə getməz ki? Ona görə də Şuşaya səfər təşkil edənlərə təşəkkür düşür. Əlbəttə ki, 30 il sonra dədə-baba torpağına qədəm qoymaq, havasını ciyərlərinə çəkmək, ətrini qoxlamaq gözəl hislərdir. İnanın ki, orada özümü 10 yaşında Şuşadan çıxmış kimi hiss edirdim. Ona görə də evimizi tapmaq mənən çətin olmadı. Həm də babamgilin, dayımgilin, xalamgilin evlərini ziyarət etdim".

B. Məmmədli deyir ki, Şuşada hər addımda erməni vəhşiliyinin izi var: " Hər yeri kol-kos basıb, hər yer dağıdılıb, evlərin daşları belə sökülüb. Amma ermənilər pis mənada nə ediblərsə, azərbaycanlıların, şuşalıların izini silə bilməyiblər. Səfər bitəndən sonra Bakıya geri dönmək mənim üçün çox ağır idi. Amma Şuşada aparılan tikinti-quruculuq işləri onu göstərir ki, tezliklə evimizə qayıdacağıq. Buna heç bir şübhə yoxdur".

Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlara geri dönüş səfərləri minalardan təmizlənmiş rayonlar üzrə aparılır. Bir müddət öncə bir qrup Ağdam sakininin doğma şəhərinə səfəri təşkil olunub. Ağdamlıları Azərbaycan Respublikası Prezidentinin Ağdam üzrə xüsusi nümayəndəsi Emin Hüseynov qarşılayıb. Səfər iştirakçıları Pənahəli xanın İmarət kompleksinə, Ağdam çörək muzeyinə, Ağdam cümə məscidinə və Şahbulaq qalasına gediblər.Sentyabrın 2-də isə bir qrup Kəlbəcər sakininin doğma şəhərinə səfəri başa çatıb. Səfərdə 25 yerli sakin iştirak edib. Onlar əvvəlcə rayonda "Tunel qətliamı"nın baş verdiyi ərazini ziyarət edib və gül dəstələri qoyublar.Daha sonra Zülfüqarlı kəndində Milli Qəhrəman Şahlar Şükürovun məzarı ziyarət olunub. Eyni zamanda, sakinlər Başlıbel faciəsinin baş verdiyi ərazidə və Günəşli kəndində də olublar. Sonda kəlbəcərlilər doğma şəhərlərində görülən işlərlə tanış olublar. Onu da qeyd edək ki, səfər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunub.

Məlumat üçün deyək ki, "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə işğaldan azad olunmuş ərazilərə böyük qayıdış üzrə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya üzrə alt İşçi Qrup yaradılıb. Vətən müharibəsində möhtəşəm Qələbəmizdən sonra ölkəmiz üçün yeni dövr başlayıb. İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiya hazırlanıb. Prezidentin də dəfələrlə vurğuladığı kimi, indi hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. İşğaldan azad edilmiş ərazilər indi bütün gücü ilə Böyük Qayıdış üçün hazırlanır.

Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımıza səfər etmək təkcə o torpaqlarda doğulanların yox, bütün azərbaycanlıların arzusudur. Bunu 44 günlük müharibədə Azərbaycanda yaşayan azsaylı xalqların birliyi də sübut etdi. Məhz bu istəyi nəzərə alaraq Dövlət Turizm Agentliyi Qarabağ turizm marşrutları konsepsiyası hazırlayır. Konsepsiyada Ağdam və Füzuli-Xocavənd marşrutları üzrə turlar nəzərdə tutulur. Bunu Bakı-Şimal-Qərb dəhlizi layihəsinin kordinatoru Nizami Qasımov deyib. O bildirib ki, Ağdama turların avqustun axırında reallaşması planlaşdırılır: "Əsasən ağdamlılar olmaqla, yaşlı nəslin nümayəndələrinin səfəri nəzərdə tutulur".

Dövlət Turizm Agentliyinin Regional inkişaf sektorunun müdiri Elgün Cavadov bildirib ki, Ağdama turların qiyməti hələ müəyyən edilməyib:

"Amma simvolik olacaq. Biletləri onlayn və offlayn əldə etmək mümkün olacaq. Füzuli-Xocavənd marşrutu üzrə turların gələn il həyata keçirilməsi nəzərdə tutulur. Tələbat olarsa, bu istiqamətdə işlər intensivləşdiriləcək".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Nazir Ermənistanın təxribatları barədə polşalı həmkarına məlumat verdi

***BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Polşa xarici işlər naziri Zbiqnyev Rau ilə görüşüb.***

Xarici İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, nazirlər, ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri, o cümlədən siyasi dialoqun uğurla davam etdirilməsi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti, Azərbaycan və Polşa arasında strateji tərəfdaşlıqla bağlı məsələlər, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıblar.

Ölkələr arasında ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi və bu istiqamətdə birgə səylərin davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Tərəflər görüş zamanı Azərbaycan və Avropa İttifaqı əməkdaşlığı, o cümlədən Şərq Tərəfdaşlığı çərçivəsində iştirakla bağlı məsələləri müzakirə ediblər.

Tərəflər, Polşanın qarşıdan gələn il ATƏT-ə sədrliyi ilə bağlı, ATƏT çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə nazir Ceyhun Bayramov həmkarına 44 günlük Vətən müharibəsi nəticəsində bölgədə yaranmış yeni reallıqlar və cari regional təhlükəsizlik vəziyyəti, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrasından bəhs edərək, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində öz gücü hesabına torpaqlarını Ermənistanın işğalından azad edərək BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etdiyini vurğuladı. O, ölkəmizin bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunmasında maraqlı olduğunu, bu istiqamətdə lazımi addımları atdığını qeyd etdi və Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinə başladığını həmkarının diqqətinə çatdırdı.

Nazir Ceyhun Bayramov Ermənistanın hələ də bölgədə sabitliyə əngəl yaratdığını və təxribatlarını davam etdirdiyini söylədi və Ermənistanın törətdiyi təxribatlar barədə həmkarını məlumatlandırdı.

Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayan Zbiqnyev Rau bölgədə sülhün və sabitliyin təmin olunmasının vacibliyini qeyd edib. O, Azərbaycanın Polşa üçün mühüm tərəfdaş olduğunu və fəaliyyəti müddətində bu münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Siqaret çəkənlər koronavirusu yüngül keçirir? - Baş infeksionistdən CAVAB

***Siqaret çəkən insanların koronavirusu yüngül keçirməsi ilə bağlı cəmiyyətdə fikirlər səsləndirilir və bu da onunla əsaslandırılır ki, nikotin koronavirusun ağciyərə düşməsini əngəlləyir.***

"Unikal" xəbər verir ki, Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bu fikirlərin əsassız olduğunu bildirib.

O qeyd edib ki, siqaret çəkməyin və nikotinin xəstəliyin daha yüngül keçməsinə səbəb olması fikri əsaslı deyil: "Əksinə uzun müddət siqaret çəkən insanların tənəffüs yollarında xronoki iltihablaşma ged ir ki, bu da həmin insanlarda koronavirusa yoluxma zamanı daha ciddi ağırlaşmalara səbəb ola bilər".

## İrandan Azərbaycana kartof idxalına qadağa qoyuldu

***İrandan "Afshin Ghoje Biglo Agha Mohammad Biglo" və "Saleh Ehsas Gojeh Bagloo" adlı təsərrüfat subyektləri tərəfindən ölkəmizə ixrac edilən kartof məhsulunda karantin tətbiq edilən kartof güvəsi (Phthorimaea operculella) aşkar edilib.***

Bu barədə AQTA məlumat yayıb. Bununla əlaqədar Agentlik İran tərəfinə notifikasiya verib, adıçəkilən subyektlər tərəfindən Azərbaycana kartof ixracının dayandırılması və baş verən uyğunsuzluqların araşdırılaraq nəticəsi barədə məlumat verilməsinin zəruriliyi bildirilib.

Faktla bağlı respublikanın baş dövlət fitosanitar müfəttişi tərəfindən "Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş məhsul idxalının qadağan edilməsi haqqında" 2021-ci il 21 sentyabr tarixli Q-BS/006 nömrəli qərar qəbul edilib.

## Almaniyadan deportasiya edilən Röya Rəfili sığınacağa yerləşdirildi

***Xəbər verdiyimiz kimi, jurnalist Röya Rəfili üç övladı ilə birlikdə Almaniyanın Düsseldorf şəhərindən Bakıya deportasiya olunub.***

"Unikal" qafqazinfo-ya istinadən xəbər verir ki, jurnalist karantin müddəti bitdikdən sonra gedəcək yeri olmaması, uşaqları ilə çətin vəziyyətdə qalmasına dair paylaşım edib.

Məsələyə sosial şəbəkədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin mətbuat katibi Murad Həşimov münasibət bildirib.

"Röya Rəfiyeva üç övladı ilə birlikdə Agentliyin Həssas əhali qruplarından olan şəxslər üçün sığınacaq və sosial reabilitasiya müəssisəsinə yerləşdirilib", - o qeyd edib.

## Ordusumuzun səmti müəyyənetmə yarışları yekunlaşıb

***Azərbaycan Ordusunda hərbi qulluqçular arasında keçirilən növbəti səmti müəyyənetmə yarışları yekunlaşıb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yarışlarda 8 komandanın 44 hərbi qulluqçusu mübarizə aparıb. İştirakçılar təyin olunmuş məsafəyə qaçış edərək xəritə üzərində göstərilən hədəflərin aşkarlanması tapşırıqlarını yerinə yetiriblər. Yarışın qaydalarına əsasən kişi hərbi qulluqçular 9,3 km məsafədə 13 nəzarət nöqtəsini, qadın hərbi qulluqçular isə 6 km məsafədə 10 nəzarət nöqtəsini müəyyənləşdiriblər.

Yekun nəticələrə görə qalib gələn Quru Qoşunlarının yığma komandası yarışın kubokunu qazanıb. İkinci və üçüncü yerlərə isə müvafiq olaraq Hərbi Hava Qüvvələrinin "N" saylı hərbi hissəsinin və Hərbi Polisin yığma komandaları layiq görülüblər.

Yarışın qalibləri kubok, fəxri fərman və medallarla təltif olunublar.

# Taksi sürücülərinin vaksin pasportu yoxlanılacaq - DİN rəsmisi açıqladı

***Avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən, taksi fəaliyyəti ilə məşğul olan şəxslərin COVID-19-a qarşı peyvənd olunması və ya immunitet sertifikatına sahib olmaları xidmətə cəlb olunan polisin naryad qrupları tərəfindən seçmə yolu ilə yoxlanılacaq.***




Bakıvaxtı.az xəbər verir ki, bunu trend-ə Daxili İşlər Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev deyib.

O bildirib ki, stasionar postlarda və yollarda avtopatrulda xidmət aparan YPX əməkdaşları tərəfindən bu qayda və tələblərə əməl edilməsi diqqətdə saxlanılacaq.

"İnzibati Xətalar Məcəlləsinin 211 -ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmas) maddəsinə uyğun olaraq, Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə - fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan on bir min manatadək məbləğdə cərimə edilir".

Qeyd edək ki, oktyabrın 1-dən avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması ilə məşğul olanlardan, o cümlədən taksi sürücülərindən 2-ci doza peyvənd olunmalarına dair COVID-19 pasportu tələb olunacaq. Həmin tarixdən etibarən COVID-19 pasportu olmayan taksi sürücülərinin müəyyənləşdirilməsi istiqamətində reydlər keçiriləcək.

# Vətən müharibəsinin qalib şəhidi Astaralı Sadiq

***Astara rayonunun Ərçivan qəsəbəsində dünyaya göz açan Sadiq Kamal oğlu Zeynalov İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqla sözün əsl mənasında tarix yazdı. Bununla da canından artıq sevdiyi Vətən, torpaq naminə etdikləri onu ömrünün ən mənalı, gözəl çağında-22 yaşında ölümsüzlüyə qovuşdurdu. İndi cismən aramızda olmasa da, ucaldığı şəhidlik zirvəsindən bizlərə öz yurdunu sevib şərəflə, qeyrətlə yaşamağın yollarını göstərir.***




Sadiq orta məktəbi bitirib müstəqil həyata qədəm qoyanda artıq onun torpağa bağlılığı, Vətən üçün yaşaması el-obaya yaxşı bəlli idi. Necə deyərlər, xeyirxah məqsədlər naminə çalışmaq, millətinə səmimi xidmət etmək Sadiqin iç dünyasından qaynaqlanırdı. Yaxşılıq gözündə yaşa dolan Sadiqi Ərçivan camaatı 2016-cı ildə əsgərliyə Vətənə sədaqətli, layiqli bir vətənpərvər kimi yola salırlar.

Naxçıvan Muxtar Respublikasında tank batalyonunda xidmət edən Sadiq Vətənin müqəddəsliyinə tapınmaqla verilən bütün tapşırıqların öhdəsindən layiqincə gəlir . Mərdliyi, bacarığı hərbi hissədə ona böyük etimad qazandırır. Bir sözlə, layiqli bir övlad olaraq həmişə can dediyi doğma Azərbaycan qarşısında oğulluq borcunu şərəflə verib evinə qayıdır. Qaldı ki, düşmən tapdağında olan Qarabağın taleyini düşünən Sadiq öz yerini hərbiçi sənətində görür. Əsas istəyi də döyüş meydanında yağı düşmənin başını əzib Vətən torpaqları azad etmək olur.

Sadiq cəbhə bölgəsində nümunəvi xidməti ilə seçilir, həm də erməni faşistləri məhv etməkdən ötrü bir daha peşəsinə mükəmməl yiyələnir. Bütün bunlarla bərabər həmişə silaha sarılıb düşməndən işğal etdiyi Azərbaycan torpaqların intiqamını almaqdan ötrü məqam axtarır.

İkinci Qarabağ müharibəsi başlananda elə Vətənin harayına birinci gedən Sadiq olur. Özü də qalib gəlmək istəyi ilə döyüş meydanına atılır. Və neçə-neçə qeyri bərabər savaş meydanında erməni dığalarına od qoyur. Qəlbi Vətən sevdalı qəhrəman 30 il işğal altında olan doğma torpaqların hər qarışı uğrunda mərdliklə, ürəklə mübarizə aparır. Sərasər 28 gün odun-alovun içində vuruşan Sadiq Vətən torpaqların azadlığını düşünməklə erməni faşistlərinin çoxlu canlı qüvvəsini məhv edir, döyüş texnikasını sıradan çıxarır. Füzulidə, Cəbrayılda xüsusi şücaət göstərir. 25 oktyabrda şəhid olan günü də ürəyindən keçən qisası yağılardan ala bilir. Onun şərəfli ölümü isə zəfərə gedən yolu bir qədər də Ordumuza yaxın edir.

Astaralılar indi öz qəhrəman oğlu ilə qürur duyur, onu şanlı tariximizin hünər, igidlik rəmzi kimi ürəyində yaşadırlar. Qərinələr boyunca da belə olacaq. Çünki Sadiq Vətən naminə öz canından keçib. Dövlət tərəfində layiq görüldüyü "Vətən uğrunda", eləcə Füzulinin, Cəbrayılın azad olmasına görə medalları Sadiqin igid adına yaraşır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Bu həftəsonundan ictimai nəqliyyatın fəaliyyəti bərpa oluna bilər" - Açıqlama

***Covid-19 pandemiyasının ölkəmizdə başladığı gündən 1 il 6 ay sonra - bu gün ənənəvi təhsil də bərpa olundu. Vaksinasiyanın sürətlə həyata keçirilməsi nəticəsində əvvəlki həyatımıza dönməyə başlayırıq.***



Lakin bir sıra qadağalar aradan qaldırılsa da, həftəsonu ictimai nəqliyyatın işləməməsi ilə bağlı verilən qərar hələ də qüvvədədir. Bir sıra etirazlara baxmayaraq Nazirlər Kabineti yanında Operativ Qərargah bu qərarı ləğv etmir.

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü, deputat Fazil Mustafa Bakıvaxtı.az-a bildirib ki, bu məsələni deputatlar Milli Məclisdə fərdi qaydada müzakirə edə bilər: "Təbii ki, Operativ Qərargah prosesləri tənzimləmədə müsbət addımlar atır. Lakin Qərargahının böyük yanlışı şənbə-bazar günü vətəndaşlara verdiyi əziyyətdir. Bunu artıq sanki bilərəkdən edirlər. İlk dövrlərdə təcrübə az idi, nəyin faydalı olacağını tapmaq bir az çətin idi. Lakin bu gün küçədə dezinfeksiya işləri aparılsa gülməli görünər. Şənbə-bazar günü ictimai nəqliyyatın işləməməsinin heç bir əsası, məntiqi izahı yoxdur. Heç izahını verə də bilməzlər. Çünki burda virusun yayılması ilə bağlı heç bir problem yoxdur. Cəmiyyətdə ehtimallar var ki, bu qərardan taksi şirkətlərinin marağını güdmək üçün istifadə olunur və yaxud məqsədyönlü şəkildə vətəndaşların yoxsullaşmasına kömək etmək istəyirlər. Ya da ola bilsin ki, elə belə - kef havasına fikirləşirlər ki, bir az vətəndaş əziyyət çəksin, biz də pəncərədən baxaq. Yəni bu, izahı olmayan bir davranışdır. Sahibkarlar artıq hər bir işçisinə aylıq yüz manat əlavə ödəyir ki, işə taksi ilə gəlsin. Sahibkar on işçisinə yüz manat ödəsə, aya min manat xərci çıxır. Kiçik bir mağazada min manat gəlir götürmək özü qəliz məsələdir. Yaxud şənbə günü küçəni süpürməyə gələn süpürgəçi neyləsin? Suraxanıdan Bakının mərkəzinə nə ilə gəlsin? Deyək ki, bu süpürgəçilərin taksi pulunu da ayrı-ayrı idarə müdirləri, icra hakimiyyəti təmsilçiləri ödəməli olurlar. Sabah da onların yaxasından yapışırıq ki, niyə rüşvət alırsınız. Almasın neyləsin?"

Deputat qeyd edib ki, bütün sahələr üzrə olan işçilər bu qərara görə əziyyət çəkir: "Müəllimlərin çoxunun maşını yoxdur, məktəbə nə ilə getsin? Azərbaycanda iki mindən çox dializ xəstəsi olan insan var, xəstəxanaya necə getsin? Həkimlər, tibb işçiləri işinə necə getsin? Onlar nə maaş alır ki, takisyə də pul versinlər? Ölkədə xeyli sayda qadınlar var ki, taksiyə tək minmir. Müəyyən mənada bu, mental bir gerçəklikdir. Onlar nə etsin? Həmçinin şənbə-bazar ictimai nəqliyyatın işləməməsi ilə avtobus sürücüləri və metro işçiləri də əziyyət çəkir. Axmaq bir qayda ilə həmişə davam etməliyik?! Televiziya və media jurnalistləri əziyyət çəkirlər. Bu, olduqca ciddi məsələdir. Yüzlərlə insan onsuz da pandemiyadan yorulmuş, əzilmiş, kasıblamış vəziyyətdə qalıb. Yəni demək istədiyim odur ki, bütün kateqoriyadan olan insanları bilərəkdən zillət içinə salırlar və bunun da izahı yoxdur. Mən bu məsələyə qəti etirazımı bildirirəm. Hesab edirəm ki, bu cür yanlış qərardan, məhz bu həftəsonundan yayınmaq lazımdır. Düşünürəm ki, ölkə rəhbəri də bu məsələyə müdaxilə etməlidir. Bu artıq virusla bağlı məsələ deyil, vətəndaşa əziyyət verməkdir. Ən acınacaqlı durum isə odur ki, Təhsil naziri deyir ki, mən məktəblərdə baxdım, hamı maşınla gəlir. Bunların heç müəllimin də vəziyyətindən xəbəri yoxdur. Müəllimin ayda maaşının yarısını taksiyə verməlidir? Hələ bunu anlamırlar bunlar. İnsanları bu əziyyətdən qurtarmaq lazımdır".

*Nuranə Daxilqızı*

# GUAM yoxsa, Batumi bəyannaməsi?

***"Ceyhun Bayramov GUAM-a üzv dövlətlərə müraciət edərək Azərbaycanın irəli sürdüyü minaların insan hüquqlarına təsiri ilə bağlı bəyanata qoşulmağa və bununla bağlı Cenevrədəki daimi nümayəndəliklərinə təlimat verməyə dəvət edib."***



"Unikal" xəbər verir ki, bunları politoloq Elxan Şahinoğlu deyib:

"Xarici işlər naziri Ceyhun Bayramov BMT sessiyası çərçivəsində Nyu-Yorkda GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) Xarici İşlər Nazirləri Şurasının 37-ci iclasında çıxış edib. Bu COVID-19 pandemiyası ilə bağlı qapanmadan sonra GUAM Xarici İşlər Nazirləri Şurasının ilk toplantısı idi.

Birincisi, Ceyhun Bayramov deyib ki, GUAM regional təşkilat olaraq dayanıqlı sülhün və inkişafın təmin edilməsi üçün əhəmiyyətli platformadır.

İkincisi, Ceyhun Bayramov GUAM-İsrail Birgə Bəyannaməsini alqışlayıb. Azərbaycan kimi Gürcüstan, Ukrayna və Moldovanın da İsraillə tərəfdaşlıq münasibətləri var.

Üçüncüsü, Ceyhun Bayramov GUAM Parlament Assambleyasının (PA) 13-cü sessiyasının kommünikesi beynəlxalq və regional parlamentlərarası assosiasiyaları ilə əməkdaşlığı davam etdirmək niyyətini bir daha təsdiq edib.

Dördüncüsü, Ceyhun Bayramov GUAM-a üzv dövlətlərə müraciət edərək Azərbaycanın irəli sürdüyü minaların insan hüquqlarına təsiri ilə bağlı bəyanata qoşulmağa və bununla bağlı Cenevrədəki daimi nümayəndəliklərinə təlimat verməyə dəvət edib.

Beləliklə, Ceyhun Bayramov əməkdaşlıqla bağlı bəndləri sadalamaqla rəsmi Bakının GUAM-ın fəaliyyətində əvvəlkitək maraqlı olduğunu bildirib. Halbuki, Moldova, Ukrayna və Gürcüstan bu il ərzində öz aralarında birliyin inkişafına çalışıblar.

Bu ilin may ayında Kiyevdə 3 ölkənin xarici işlər nazirləri görüşüb. Nazirlər üçtərəfli görüş zamanı hər üç ölkənin Avropaya inteqrasiyasının sürətləndirilməsi məqsədi ilə birgə koordinasiya və əməkdaşlıq formatının təsis edilməsi barədə memorandum imzalayıblar. Memoranduma əsasən, hər üç ölkə Avropa İttifaqına üzvlüyü son məqsəd elan edib.

Ukrayna, Gürcüstan və Moldova prezidentləri iyulun 20-də Batumidə bir araya gələrək Avropa İttifaqı ilə daha dərin inteqrasiyasiyanı nəzərdə tutan bəyannamə imzalayıblar. 3 ölkənin məqsədi Avropa İttifaqına üzv olmaqdır. Bəyannamənin imzalanması mərasimində Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel də iştirak edib.

Gürcüstan, Moldova və Ukraynadan fərqli olaraq Azərbaycanın Avropa İttifaqına üzvlük hədəfi yoxdur. Azərbaycan 3 ölkədən fərqli olaraq Avropa İttifaqı ilə assosiativ saziş imzalamayıb. Bu səbəbdən Azərbaycan Batumi bəyannaməsinə qoşulmayıb. Buna baxmayaraq, rəsmi Bakı GUAM platformasından imtina etmək istəmir. Bunun bir neçə səbəbi var.

Birincisi, Azərbaycan GUAM platforması çərçivəsində tərəfdaşları və yeni üzvlərlə kollektiv dialoqu davam etdirmək istəyir.

İkincisi, Azərbaycanın Qərbin dəstək verdiyi GUAM platforması vasitəsilə Rusiya və Qərb arasında balanslaşdırılmış siyasətini davam etdirmək imkanı var.

Üçüncüsü, hər birində separatçı bölgə olan GUAM ölkələri bir-birlərinin ərazi bütövlüklərini birmənalı dəstəkləyirlər. Bu amil də Azərbaycan üçün əhəmiyyətlidir".



# Ali təhsil müəssisələrinə qeydiyyat bu gün başa çatır

***Sentyabrın 23-də abituriyentlərin qəbul olunduqları ali təhsil müəssisələri üzrə qeydiyyat prosesi yekunlaşır.***

Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, proses bu gün saat 12:00-dək davam edəcək.

Qəbul olunan abituriyentlər qeyd olunan tarixədək portal.edu.az platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidirlər.

Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək.

Qeyd edək ki, abituriyentlərin qeydiyyatı ilə bağlı alternativ qeydiyyat mərkəzləri fəaliyyət göstərir. Ətraflı məlumat portal.edu.az saytında yerləşdirilib.

# ASAN xidmət "Baykar Makina" ilə araşdırma mərkəzi yaradır

***Azərbaycanın ASAN xidmət dövlət orqanı olaraq Türkiyənin Texnologiya Fondu ilə saziş imzaladıq. Burada bir neçə ildir "Bilim Türkiyə" adlı layihə həyata keçirilir. "Bilim Türkiyə"nin Azərbaycanda "Bilim Bakı" mərkəzini yaradacağıq.***




"Unikal" xəbər verir ki, bu sözləri Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "Haber Global"a müsahibəsində deyib.

O qeyd edib ki, Azərbaycan gəncləri həmin mərkəzdə öz proqramlarının yazılması, dronlarının hazırlanması, digər texnoloji təlimlərə cəlb olunacaqlar. Bu da onların gələcəkdə həmin sahədə peşkar biliklərə yiyələnməsinə səbəb olacaq.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə "Baykar Makina" s?irkəti ilə əməkdaşlıq protokolu imzalanıb.

"ASAN Xidmət həmin şirkətlə birgə innovasiya, araşdırma, resurs mərkəzi yaradacaq. Orada tədqiqat və araşdırmalar aparılacaq. Hər iki saziş bizim üçün dəyərli və qiymətlidir. Biz qısa müddətdə türk həmkarlarımızla, qardaşlarımızla birgə müasir innovasiyalı araşdırma mərkəzini qurmağı nəzərdə tuturuq", - deyə Ülvi Mehdiyev bildirib.

O, "Teknofest" festivalının Bakıda keçiriləcəyini əlavə edib: "Bizim nazirliklə Türkiyənin müvafiq nazirliyi arasında danışıqlar gedir. Bakıda belə bir festivalın keçirilməsini planlaşdırırıq. İnanırıq ki, bir millət iki dövlət olaraq, bu sahədə də önəmli addımlar atacağıq".



## Ərdoğanın ABŞ səfəri başa çatdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 4 günlük ABŞ səfərini başa vurub.***

“Unikal” Türkiyə mediasına istinadən xəbər verir ki, BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirak etmək üçün Nyu-Yorka gedən Prezident Ərdoğan 4 günlük görüşlərdən sonra ABŞ-dakı Türk Evini tərk edib.

BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışından başqa çox sayda ikitərəfli görüşlər keçirən və toplantılara qatılan Ərdoğan hava limanına yollanıb.

## Zelenski Putinlə nə vaxt görüşəcəyini açıqladı

***Ukrayna prezidenti Vladimir Zelenski Rusiya lideri Vladimir Putinlə nə vaxt görüşəcəyini açıqlayıb.***

Bu barədə o, BMT qərargahından çıxarkən jurnalistlərin ünvanladığı sualı cavablandırarkən bildirib.

”O hazır olanda”, - Zelenski sualın cavabında belə deyib.

## Çavuşoğludan Əfqanıstanla bağlı ÇAĞIRIŞ

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu G20 ölkələri Xarici İşlər Nazirlərinin Əfqanıstana həsr olunan onlayn iclasında iştirak edib.***

“Unikal” xəbər verir ki, nazir Əfqanıstanla bağlı mövqeyi barədə Tvitter hesabında da paylaşım edib.

“Humanitar vəziyyət və nizamsız köç başda olmaqla, gündəmdəki məsələlər haqqında fikirlərimizi bölüşdük. Beynəlxalq aləm Əfqanıstanla əlaqələri davam etdirməlidir”, - xarici siyasət idarəsinin rəhbəri yazıb.

## “Taliban”ın BMT-də nümayəndəliyi noyabrda müzakirə ediləcək

***Əfqanıstanda hakimiyyəti ələ keçirən “Taliban” hərəkatının BMT-dəki nümayəndəliyi məsələsinə noyabr ayında baxıla bilər.***

Bu barədə “İnterfaks” agentliyi BMT-dəki mənbələrinə istinadən yazıb.

Mənbə bildirib ki, məsələ noyabr ayında müvafiq komitədə müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, ötən gün “Taliban” Əfqanıstan təmsilçisi kimi BMT Baş Assambleyasında çıxış üçün müraciət edib.

# Tehran Bakının qədrini bilməlidir - İranın siyasətində nə yanlışdır?

***İrandan Ermənistana yük daşımaq üçün yollar, istiqamətlər və marşrutlar yox olsa da, rəsmi Tehran Ermənistana, oradan da Azərbaycana, Xankəndindəki erməni separatçılara yüklər daşımaq üçün məhz Gorus-Qafan yolundan istifadədə israrlı idi.***

İndisə Tehran Ermənistandan alternativ yolun çəkilməsini, Tatev-Qafan marşrutunun mümkün qədər tez istifadəyə verilməsini az qala tələb edir.

Ermənistan Azərbaycan və İran arasında aranı qızışdırmaq və qarşıdurma yaratmaqla məşğuldur.

Əslində İrandan məhsulların Ermənistana daşınması üçün Ermənistan öz ərazisində 25 kilometr yol çəkməli idi. Ermənistan yolun 20 kilometr hissəsini çəkib, 5 kilometri isə hələ də çəkməyib: ”Bu yol vaxtında çəkilsəydi, yük avtomobilləri Azərbaycan ərazisinə daxil olmayacaqdı. Hazırda İranda bu barədə susurlar ki, Azərbaycanı günahlandırsınlar”.



Gorus-Qafan yolunun Azərbaycan hissəsində Azərbaycan tərəfinə müqavimət göstərən iki iranlı sürücü saxlanılıb. İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi bu məsələ ilə bağlı Azərbaycanın baş nazirinin müavini Şahin Mustafayevlə görüşüb və hələlik hər hansı bir nəticə yoxdur.

Azərbaycan yol məsələsində öz qaydalarını tətbiq etməkdə haqlıdır.

Bunlar bəlli, əfsuslar olsun ki, indiki dövrün Cənubi Qafqazdakı möucud reallıqlarıdır.

İran hakimiyyətindəki bəzi dairələr ölkələrimiz arasındakı münasibətləri sərinləşdirmək, gərginləşdirmək, tərəfdaşlıq və qonşuluq təmaslarını maksimum gərginləşdirmək üçün sanki bəhsə giriblər.

Halbuki bəhs etdiyim gərginlik Azərbaycana, xüsusilə də İrana əsla gərəkli olmayan, hadisələrin ən pis inkişaf ssenarisi sayılan məqamlardır.

İran İslam Respublikasında hakimiyyətdə daha səbatlı yer qazanmağa çalışan və daxili siyasi mübarizədə çox böyük yanlışlığa yol verərək Azərbaycanla münasibətlərdən ”təsirli amil” qismində yaraolanmağa çalışan qüvvələr öz manipulyasiyaları ilə ikitərəfli əlaqələri sınağa çəkirlər.

Onlar Qarabağın yeni satutsunu qəbul etmək istəmir, 44 günlük Vətən Müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi gerçəkləri qəbul etmirlər.

Sözügedən qüvvələr uzunmüddətli proqnozlaşdırmalar etmir və anlamırlar ki, hərəkətərinə davam edərsə İran əslində, Cənubi Qafqazdakı nüfuzu ilə yanaşı, təsir imkanlarını ümumiyyətlə, itirə bilər.

Əslində rəsmi Tehran elə indi, hazırkı durumda Bakı ilə İrəvan arasında manevr müstəvisini əldən verib.

Bunun bariz misallarından biri Ermənistanın baş naziri Nikol Paşinyanın üzləşdiyi problemləri qismən də olsa, çözmək üçün İran rəhbərliyi ilə yox, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüş imkanları aramasıdır.

İrəvanla Ankara arasındakı münasibətsizlik dönəminin qarşılıqlı müzakirələr mərhələsinə keçidi isə Ermənistanın kritik situasiyadan qismən çıxmağa başlaması ilə yanaşı, həm də Cənubi Qafqazdakı geosiyasi imkanların qapılarının Tehranın üzünə qapanması deməkdir.

İran bundan sonra nə qədər çalışsa da, Ermənistanı nə ağır siyasi, nə də fəlakətli iqtisadi böhrandan çıxara bilməyəcək.

Üstəlik, İrandakı daxili iqtisadi və siyasi vəziyyət də az qala günbəgün ağırlaşır.

Rəsmi Tehran Cənubi Qafqazda mövqelərini bərpa etmək niyyətində ikən ölkə daxildə İranın Suriya, Yəmən, İraq, Liviya, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Əfqanıstanla bağlı yürütdüyü siyasətdən kəskin narazılığın miqyası ilə intensivliyi genişlənir.

Halbuki Ermənistanı dəstəkləməklə İran yanlış mövqe tutur, Cənubi Qafqazda gerçəkləşdirilən transregional layihələrdən özünü kənarlaşdırır. ”Şimal-Qərb” və ”Şərq-Qərb” dəhlizlərinə qatılmaq üçün geni imkanları olmuş Tehran məhz son dönəmlərdəki siyasətindən olayı, həmin layihələrin tammiqyaslı və effektiv iştirakçısına çevrilmək üçün mövcud invariasiyaları dəyərəndirə bilməyib.

Problem sadəcə, iqtisadi itkilərlə məhdudlaşmır.

Azərbaycanın cənub sərhədlərində hərbi təlimlər keçirən, Bakıya ünvanlanmış ”Şirin quyruğu ilə oynama!” bəyanatını Ərdəbilin imam-cüməsi Seyid Amilinin dili ilə səsləndirən Tehran türkdilli ölkələrlə yanaşı, İslam ölkələrindəki nüfuzuna da çox ağır zərbə vurub.

Rəsmi ideologiyasını ”İslam ümmətinə dəstək” tipli meynstrim şüar üzərində qurmuş İranın qonşuluğundakı müsəlman ölkəsi ilə münasibətləri gərməsi, işğalçı Ermənistanı isə dəstəkləməsi müsəlman ölkələrində, xüsusilə də türkdilli dövlətlərdə çeşidli suallar doğurub.

Xəzəryanı bölgə dövlətləri İranın davranışını bilavasitə Tehranın özü üçün siyasi və geosiyasi risklər yaradan siyasət təki dəyərləndirirlər.

Qazaxıstan və Türkmənistan rəsmiləri üstüörtülü şəkildə, diplomatik etiketə tam riayət edərək indiyədək dəfələrlə bəyan ediblər ki, Qarabağ problematikasında İrandan ən azı neytrallıq gözləyir, bununla bağlı formalaşmış suallara İran rəşbərliyinin cavab verəcəyinə ümid edirlər.

Suallara Tehran cavab verməyib, halbuki bu, İranın hakimiyyət dairələrinin birbaşa marağında olan və mənafelərinə cavab verən addım olmalıydı.

Tehranın Bakı ilə bağlı tutduğu mövqe, qeyd etdiyim kimi, ölkə daxilində də hakim teokratik rejim üçün ciddi problemlər yaradıb.

İranda keçirilmiş son prezident seçkiləri, səsvermə ərəfəsində müxtəlif tabanlardan və etnik qruplardan olan şəxslərin kollektiv mövqeləri ölkədəki azərbaycanlıların siyasi aktivliklərinin xeyli artdığını göstərib.

İrəvanla əlaqələrini təftiş etməyəcəyi təqdirdə Tehran ölkədəki 32,5 milyon azərbaycanlının tam əksəriyyətinin etirazları ilə yenidən qarşılaşacağını yəqin etməlidir.

Təbii, biz heç İranda vəziyyətin daha da ağırlaşmasını, siyasi və iqtisadi probemlərin kəskinləşməsini istəmirik. Bakının məramı bu deyil: Azərbaycanın məqsədi İranla normal tərəfdaşlıq və qonşuluq münasibətlərinin sürətli inkişafıdır.

Ümumilikdə isə İranın Azərbaycanla bağlı mövcud narahatlığının və təlaşının heç bir əsası yoxdur.

Rəsmi Bakı heç bir halda, heç bir zaman İrana qarşı aqressiv ritorika ilə çıxış etməyib, düşmən mövqe tutmayıb.

Münasibətlərdəki indiki bəlli sərinliyin aradan qaldırılması yolları və vasitələri isə çox bəsitdir.

İran İslam Respublikasının rəsmilərinin və xüsusilə də rəhbərliyinin Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün, sərhəd toxunulmazlığının və 44 günlük Vətən Müharibəsinin sonuclarının tanınması ilə bağlı aydıq, bitkin mövqelərini açıqlamaları gərəkdir.

Daha sonra isə İrandan Ermənistana, oradan da Azərbaycan ərazisinə, Xankəndinə yüklərin daşınması adı ilə qarabağlı ermənilərin separatçı rejimini təmin edən hüquqi və fiziki şəxsləri qanunsuz əməllərinə görə ölkənin mövcud qanunvericiliyi çərçivəsində cazalandırmalıdır.

.... Kollektiv Qərb İran ətrafında təzyiq və pressinq həlqəsini fasiləsiz daraldır, Tehranın siyasi manevr imkanlarını məhdudlaşdırır. Belə şəraitdə İranın Azərbaycanla münasibətlərə gərəkli, layiq olduğu dəyər verməsi labud olmalıdır.

Rəsmi Tehran Bakı ilə əlaqələri normallaşdırmaq üçün əməli addımlar atmalıdır.

Bakı analoji addımlara daim hazırdır.

***Elçin Alıoğlu***

# Ronaldo kubok matçında niyə oynamayıb?

***"Mançester Yunayted"in baş məşqçisi Ole Qunnar Solşer İngiltərə Liqa Kubokunun 1/16 finalında "Vest Hem"ə qarşı oyunda hücumçu Kriştiano Ronaldonu iştirak ərizəsinə niyə daxil etmədiyi haqda danışıb.***



O, digər futbolçuların da oynaması üçün bu qərarı verdiyini deyib: "Ötən bazar matçdan əvvəl heyətdə dəyişiklik edəcəyimizə qərar verdik. Digər oyunçulara oyun praktikası verməli idik. Məsələn, Aleks Telles sağalmışdı, bir həftə məşq etmişdi. Qarşıda uzun bir mövsüm var.

Ronaldo kluba keçidindən sonra komandanın oyununa böyük təsir göstərdi. Mümkün qədər oynamaq istəyir, amma bunun mümkün olduğunu düşünmürəm. Mövsümün sonunda uğur qazanmaq üçün oyun dəqiqələrini futbolçular arasında bölüşdürməlisiniz. Çox sayda heyət dəyişikliyi riskdir, amma ümid edirəm ki, ritmimizi tapa biləcəyik".

Qeyd edək ki, "Mançester Yunayted" "Vest Hem"ə 0:1 hesabı ilə uduzaraq turnirdə mübarizəni dayandırıb.

# Həm yerli, həm əcnəbi "11-liy"i - "Neftçi"nin

***Azərbaycan Premyer Liqasının arxada qalan 4 turunda ən çox futbolçudan yararlanan klub bəlli olub.***

Bu göstəricidə lider "Neftçi"dir. Son çempion 4 oyunda 22 futbolçudan istifadə edib. Samir Abasov həm də daha çox - 11 legionerdən yararlanan baş məşqçidir. Bakılılar həm əcnəbi, həm yerlilərdən ibarət "11-liy"ə şans verib.

Ən az oyunçusu olanlar isə çempionatın əks qütblərində qərarlaşan komandalardır. Lider "Qəbələ" və autsayder "Keşlə"nin hərəsində cəmi 17 oyunçu meydana çıxıb.

Sonuncular həm də yerli futbolçu sarıdan korluq çəkir. Paytaxt təmsilçisi cəmi 10 azərbaycanlı futbolçuya güvənib. "Səbail"lə "Sumqayıt"da isə yerlilər daha çoxdur. Bu komandalar hərəyə 16 azərbaycanlı oyunçuya güvənib.

Qeyd edək ki, 4 turun 16 oyununda 152 futbolçu şans qazanıb. Onlardan 98-i yerli, 54-ü legionerdir. Coşqun Diniyev isə artıq iki komandada forma geyinməyə imkan tapıb.



# Azərbaycan klublarına ödəniləcək məbləği artırdı

***UEFA-nın İcraiyyə Komitəsi avrokuboklara qatılmayan klublara ödənilən vəsaitlə bağlı yeni modeli təsdiqləyib.***

Apasport.az saytının məlumatına görə, qitə miqyaslı turnirlərdən kənar qalan komandaların qazancı artacaq.

Bu, Azərbaycan da daxil olmaqla UEFA-ya üzv olan 55 ölkənin hər birinə şamil olunacaq. Klublara ödəniləcək vəsaitn ümumi həcmi də artırılacaq.

"Böyük beşliy"ə daxil olmayan assosiasiyaların həmrəylik ödənişlərindəki payı artırılıb. Əvəzində həmin 5 liqanın payı aşağı salınıb.

Komandaları Çempionlar Liqasında qrupa düşən və düşməyən assosiasiyalar arasında fərq azaldılıb.

Bazardakı çəkinin paya təsiri azaldılıb. Bölgü aydın ədalətli idman prinsiplərinə əsaslanıb.

UEFA turnirlərində iştirak etməyən klublara həmrəylik ödənişləri 4 faizə qədər artırılıb. Ümumi gəlirin 3,5 milyard avro olduğu halda bu ödənişlər 140 milyon təşkil edəcək. Bu rəqəm 3,5 milyardı keçdikdə isə gəlirlərin 30 faizi ödənişlərə əlavə olunacaq. Bu artım 35 milyonu keçməməlidir.

Avrokuboklara düşməyən komandalar arasında bölüşdürüləcək məbləğ 175 milyon avronu keçməyəcək. 2018-21-ci illərdə bu rəqəm 130 milyon idi.

"Böyük beşlik"dən kənar assosiasiyalar üçün bu rəqəm 132,5 milyon təşkil edəcək. Bu, əvvəlkindən 50 milyon artıqdır.

# "Keşlə"nin legioneri milliyə çağırıldı

***"Keşlə"nin qapıçısı Stanislav Namaşko Moldova millisinə dəvət alıb.***

Qol.az Moldova mətbuatına istinadən xəbər verir ki Moldova millisinin baş məşqçisi Robert Bordin DÇ-2022-nin seçmə mərhələsində Danimarka (9 oktyabr) və İsrail (12 oktyabr) ilə oyunlar üçün yığmaya 34 yaşlı qolkiperi də çağırıb. Qeyd edək ki, Namaşko 2019-cu ildən "Keşlə"də oynayır.

# Antirekorda iki addımı qaldı - "Yuventus"un



***"Yuventus" İtaliya A seriyasının V turunun "Spetsiya" ilə oyununda 3:2 hesabı ilə qalib gəlsə də, yenə qapısından qol buraxıb.***

Apasport.az saytının məlumatına görə, Turin təmsilçisi ardıcıl qol buraxdığı çempionat matçlarının sayını 19-a çatdırıb.

Bununla da Massimiliano Alleqrinin yetirmələri klub tarixinin antirekorduna yaxınlaşıb. Belə ki, komanda yalnız bir dəfə daha uzun müddət qol buraxmaqda uzun seriyaya imza atıb.

1955-ci ildə "Yuventus" 21 matçda qapısında qol görüb. Hazırda komandanı bu antirekorddan iki oyun ayırır.

Qeyd edək ki, turinlilər növbəti turda "Sampdoriya" ilə üz-üzə gələcək.



# Kannavaro istefa verdi

***"Quançjou Everqrand"ın (Çin) baş məşqçisi Fabio Kannavaro istefa verib.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, 48 yaşlı mütəxəssis klubla müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verməyi qəbul edib.

"Quançjou Everqrand" bu qərarı klubun sahibi olan"China Evergrande Group" holdinqin ciddi maliyyə çətinlikləri səbəbindən verib.

Buna baxmayaraq, komanda Çin çempionatını tərk etmək fikri yoxdur və klub mövsümü başa vuracaq.

Qeyd edək ki, "Quançjou" 14 oyundan sonra A qrupunda lider "Şandun Tayşan"dan 3 xal geri qalır və 2-ci pillədə qərarlaşır.

# Məşhur ukraynalı oyunçu karyerasını başa vurdu

***Ukrayna millisinin və Kiyev "Dinamo"nun hücumçusu olmuş Artem Milevski 36 yaşında karyerasını başa vurub.***

Bu haqda o özü bildirib. Onun son klubu ötən mövsüm "Minay" (Ukrayna) olub.

Milevski "Dinamo"da 241 oyuna 54 qol vurub. O, 3 dəfə Ukrayna çempionu və 4 dəfə Ukrayna kubokunun qalibi adını qazanıb.

"Dinamo"dan sonra tanınmış hücumçu "Qaziantepspor" (Türkiuə), "Hayduk" və "Split" (Xorvatiya), "Konkordiyu" (Rumıniya), "Tosno" (Rusiya), "Vişvardu" (Macarıstan) və "Dinamo" Brestdə (Belarus) də çıxış edib.

Millidə isə Milevski 50 oyunda meydana çıxıb və 8 qola imza atıb.

# Benzema La Liqanın tarixinə düşdü

***La Liqanın 6-cı turunda "Malyorka" ilə matç "Real"ın futbolçusu Kərim Benzema üçün əlamətdar olub.***

33 yaşlı hücumçu sözügedən oyunda dubl edib. Bununla da Benzema yerli çempionatda 200-cu qolunu vurub. Beləliklə, fransalı oyunçu La Liqada 200 qol həddinə çatan 10-cu futbolçu olub.

Qeyd edək ki, Benzema 2009-cu ildən Madrid təmsilçisində oynayır.

Əlavə edək ki, "Real" - "Malyorka" görüşü "kral klubu"nun 6:1 hesablı qələbəsi ilə başa çatıb.

# ABŞ fonduna satıldı - A seriyası klubu

***İtaliya klubu "Cenoa" sahibini dəyişib.***

Apasport.az saytının yerli mətbuata istinadən məlumatına görə, A seriyası təmsilçisi ABŞ fonduna satılıb.

Xəbərdə bildirilib ki, genuyalıların hazırkı sahibi Enriko Pretsiozi bununla bağlı amerikalılarla razılığa gəlib. Tezliklə rəsmi məlumatın verilməsi gözlənilir.

Qeyd edək ki, "Cenoa" A seriyasında 5 turdan sonra 4 xalla 16-cı pillədə yer alır.